

Bizi ərzaq böhranından xilas edəcək FAKTOR: BƏRƏKƏTLİ TORPAĞIMIZ!

15

# Hakim yüksəkliklərdə tarix yazan AZƏRBAYCAN ORDUSU!



2

Səs

№ 138 (6579) 5 avqust 2022-ci il. Qiymәti 60 qәpik

# Ermənilərin

## SÜNİ GƏRGİNLİK PLANININ PƏRDƏARXASI MƏQAMLARI



12



İqlim dəyişikliyinin səbəbləri və nəticələri

4



"ABŞ Azərbaycanla Ermənistan arasında dialoqa kömək etməyə hazırdır"

5




Mina müharibəsi...

8



5

"Neftçi"dən əzmkar qələbə!

Artmaqda olan boşanmaların köklü səbəbləri nədir?



Hazırda dünyada ekstremizm, qarşıdurmalar ailə institutuna mənfi təsir göstərir, onu zəiflədir. Amma bununla belə, Azərbaycanda ailə institutu qorunub saxlanılır. Bu gün ailə...

14



"Çelsi" bu futbolçuya 75 milyon avro təklif etdi!

16

# Hakim yüksəkliklərdə tarix yazan AZƏRBAYCAN ORDUSU!

## İlham Əliyev: "Unutmasınlar ki, dəmir yumruq yerindədir"



**Azərbaycanın bayrağını yüksəkliklərdən-yüksəkliklərə qaldıran siyasi gücə, iradəyə malik Böyük Lideri, Sərkərdəsi və Prezidenti var. Bu güc, bu Sərkərdəlik Azərbaycan xalqını Müzəffər xalq kimi dünyaya tanıtdı, ZƏFƏR qazanmış xalq olaraq hərbi gücümüzü dünyaya göstərə bildik. Tariximizi yazmaqla dünya hərb tarixinə də yeni bir səhifə açdıq.**

44 günlük Vətən müharibəsi Azərbaycan xalqının cəngavərliyi idi. Qisas qiyamətə qalmaz, deyirlər. 30 ilə yaxın işğal dövründə Azərbaycan hər zaman bu qisası almağa, ucadan-uca üçrəngli Azərbaycan bayrağını, qürurlu, əzəmətli Azərbaycan Bayrağını vətən torpağı üzərində məğrur-məğrur dalğalanacağı günün lap yaxında olduğunu yaxşı bilirdi. Vətən torpağına axıdılan şəhid qanının, qoca, qadın və uşaqların qışın sərt sızağında, yayın istisində el-obasından didərgin düşməsinin qisasının alınacağı günü səbirsizliklə gözləyirdi igid oğullarımız. Müstəqilliyimizin rəmzi, bütövlüyümüzün, varlığımızın simvolu olan bayrağımızı o yerlərdə dalğalandırmağa hər kəs tələsirdi. Torpağın ətrini duymağa, əcdadlarının qəbrini ziyarət etməyə, bağında boy atan meyvələrin nübarını dadmağa, çox şeyə tələsirdi hamı. Zaman yetişdi.

### "GÜCLÜ, MƏĞLUBEDİLMƏZ ORDU" MİFİNİ DARMADAĞIN EDƏN MÖHKƏM İRADƏ, SİYASİ GÜC

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuz 44 gün davam edən müharibənin gedişində möhtəşəm qələbələr qazanaraq dünya hərb tarixinə yeni şanlı səhifələr yazdı. Silahlı Qüvvələrimiz döyüş meydanında Ermənistanın "güclü, məğlubedilməz ordu" mifini darmadağın etdi.

Əlbəttə ki, müharibənin od-alovu hər bir insanda vahimə yaradır. Müharibə böyük itki, tələfatdır. Dünyanın hansısa bir ölkəsinin odlu-alovlu olmasını kimsə istəməz. Çünki Tanrının yaratdığı bütün varlıqlar sülh, əmin-amanlıq içində yaşamaq, səmasının aydın, torpağının rahat nəfəsini duymaq istər. Amma əfsuslar olsun ki, bu gün qan tökülmüş, şəhid qanına suvarılmış torpağa ayaq qoyuruq. Azərbaycan müharibənin ağrı-acısını zaman-zaman yaşamışdır. Şəhid qanının nə olduğunu hər birimiz yaxşı bilirik. Bu müqəddəs məfhum qarşısında məsuliyyətliyik. Vətəni qorumaq məsuliyyəti qanımızda, canımızdadır. Vətən çağırır, deyəndə igid oğul və qızlarımız müharibənin, od-alovun içinə atılırlar. Azərbaycan Bayrağını işğal altında olan torpaqlarımızda dalğalandırmaqdan şərəfli nə ola bilər ki? Çünki bayraq qürurumuz, iftixar hissimizdir. Bütün zirvələrdən, yüksəkliklərdən uca olan dövlət bayrağımız hər bir insanın vətəndaşlıq qürurudur.

*Ardı Səh. 3*



# Hakim yüksəkliklərdə tarix yazan AZƏRBAYCAN ORDUSU!

## İlham Əliyev: "Unutmasınlar ki, dəmir yumruq yerindədir"



Əvvəli Səh. 2

Ən yüksək zirvələrdə dalğalanan üçrəngli bayrağımız Azərbaycan dövlətinin gücünü və xalqımızın milli birliyini nümayiş etdirir. Zəfər günündə nəinki Vətən torpağı, uşaqdan böyüyə qədər sanki hər kəs özünə bayraqdan don biçdi. Bu bayrağı belə qüdrətli edən, dalğalandıran bizim qələbəmiz oldu. Sanki dünyamıza, Azərbaycana yeni bir günəş doğdu. 30 ilə yaxın bir zamanda insanların keçirdiyi o iztirab, qəm-kədər bir anın içində sevincə çevrildi. Sanki təbiət başqa bir rəngə büründü, torpaqlarımız dərindən nəfəs aldı, donmuş çöhrələr canlandı, torpağımız qələbə sevincini yaşadı. Özü də necə. Azərbaycan Prezidenti Ali Baş Komandanın müdrik siyasəti nəticəsində günəşin üzündən bütün duman, çiskin çəkildi. Səmamız aydın göründü, elə məqsədimiz kimi, tariximizə yeni bir gün yazdı. Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciəti tarixdə yeni gün oldu. "Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır". Bu müraciət xalqın tarixində yeni bir günün başlanması demək idi. Bu, elə bir gündür ki, zaman-zaman Azərbaycan xalqının ərənliyini, torpaq uğrunda savaşını, böyüklüyünü, bütövlüyünü, lazım gələndə bir yumruq olaraq birləşməsini yetişən nəsillərə illər, qərinələr, əsrlər sonra belə danışmış olacaq. Azərbaycan ordusu Vətən Müharibəsində öz gücünü, nəyə qadir olduğunu göstərdi.







### ORDUMUZUN NÖVBƏTİ UĞURU TARİXƏ YAZILDI

Əlbəttə ki, buna qədər Azərbaycan Ordusunun şanlı tarixində mühüm yerlərdən birini tutan 2016-cı ilin Aprel döyüşləri artıq düşmənə Azərbaycanın gücünü göstərmişdir. "2016-cı ildə Aprel döyüşlərində düşmənə dərs verdik və Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini düşməndən azad etdik"- deyən Cənab Prezident 2018-ci ildə uğurlu Naxçıvan əməliyyatı nəticəsində on min hektardan çox torpaq sahəsinin Azərbaycan Ordusu tərəfindən götürüldüyünü və işğalçıların o bölgələrdən qovulduğunu qeyd etmişdir: "Azərbaycan Ordusu tərəfindən götürülmüş strateji yüksəkliklər imkan verir ki, biz Ermənistanın bir neçə yaşayış məntəqəsinə nəzarət edək. Ermənistandan Dağlıq Qarabağa gedən avtomobil yolu bizim nəzarətimizdədir. Vaxtilə - 1990-cı illərin əvvəllərində Naxçıvan ərazisinin bir hissəsini işğal etmiş Ermənistan qüvvələri həmin ərazilərdən qovuldu, çıxarıldı, o torpaqlarda Azərbaycan bayrağı ucaldıldı". 26 il işğal altında olan Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyətli yüksəkliklərin Əlahiddə Ümumqoşun Ordunun əks-həmlə əməliyyatları ilə işğaldan azad edilməsi ordumuzun növbəti uğuru kimi tarixə yazıldı.



### "QİSAS" CAVAB ƏMƏLİYYATI

Amma deyəsən, "dəmir yumruğ"un gücünü görmüş ermənilər unutqanlıq edirlər. Yaxın keçmişimizdə aldığı zərbələri yaddan çıxarıblar. Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri 10 noyabr 2020-ci il tarixli Bəyanatının müddəalarını kobud surətdə pozaraq avqustun 3-də Azərbaycan Ordusunun bölmələrinə qarşı terror-təxribat əməli törədib. Bundan əlavə, qeyri-qanuni erməni silahlı dəstələrinin ünsürləri Kəlbəcər və Laçın rayonlarının ərazisini əhatə edən dağ silsiləsində yerləşən Qırxqız yüksəkliyini ələ keçirmək və orada yeni döyüş mövqelərini qurmağa cəhd göstərib. Azərbaycan Ordusu bölmələrinin keçirdiyi "Qisas" cavab əməliyyatı nəticəsində Qırxqız yüksəkliyi, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəklikləri nəzarətə götürüb. Hazırda bölmələrimiz tərəfindən əlverişli hədlərdə yeni mövqelərin qurulması və təminat yollarının çəkilməsi üzrə mühəndis işləri görülür. Əməliyyat çərçivəsində qeyri-qanuni erməni silahlı ünsürlərinin bir neçə döyüş mövqeyi dağıdılıb, keçmiş Ağdərə rayonunun Yuxarı Oratağ yaşayış məntəqəsindəki hərbi hissəyə havadan zərbə endirilib. Nəticədə, qanunsuz erməni silahlılarının canlı qüvvəsi məhv edilib və yaralanıb, həmçinin, bir neçə D-30 haubitsası, hərbi nəqliyyat vasitələri və çoxlu sayda döyüş sursatları məhv edilib.

### ÖLKƏMİZİN SUVEREN ƏRAZİLƏRİNDƏ TÖRƏDİLƏCƏK TERROR VƏ TƏXRİBATIN QARŞISI QƏTİYYƏTLƏ ALINACAQ

Xatırladaq ki, Azərbaycan Respublikası dəfələrlə bildirib ki, üçtərəfli Bəyanata zidd olaraq Ermənistan silahlı qüvvələrinin və qanunsuz erməni silahlı birləşmələrinin Rusiya Federasiyası sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində mövcudluğu təhlükə mənbəyi olaraq qalır. Həmin ərazilərin delimitarizasiyası, Ermənistan qoşunlarının oradan tam çıxarılması və qanunsuz erməni silahlı ünsürlərinin tərksilah edilməsi mütləq şəkildə labüddür. Müdafiə Nazirliyi bəyan edir ki, Azərbaycan Respublikasının Konstitusiyasını rəhbər tutaraq bundan sonra ölkəmizin suveren ərazilərində törədiləcək istənilən terror və təxribatın qarşısı qətiyyətlə alınacaq və əks cavab tədbirləri daha da sarsıdıcı olacaq. Ermənilər bu günə qədər Azərbaycan ordusunun gücünə, Ali Baş Komandanın siyasi gücünə, iradəsinə yaxşı bələddirlər.

Bu gün vətənpərvər ruhda tərbiyə almış Azərbaycan gənci hər qarış torpağın müdafiəsində dayanır. Gənclərin Vətən müharibəsi başlayanda könüllü olaraq orduya yazılması, vətən torpaqlarının müdafiəsinə qalxması vahid niyyət ətrafında birləşən gənclərimizin əzmkarlığını, vətənə sevgisini bir daha göstərmiş oldu. Öz iradəsi, gücü ilə. Bu gün də vətən oğulları Ali Baş Komandanın əmrinə, vətənin müdafiəsinə hər an hazırdırlar. Bu gün Azərbaycan qalib dövlətdir. Torpaqlarını işğaldan azad edilən qalib xalqdır. Əlbəttə ki, tarixi qələbəni bəzə yaşadan Azərbaycan Prezidenti İlham Əliyevdir, Müzəffər Azərbaycan Ordusudur. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirdiyi kimi, müharibə onların yadından çıxmamalıdır: "Unutmasınlar ki, dəmir yumruq yerindədir".

***Nəzakət ƏLƏDDİNQIZI***

**Qalıq yanacaqlar - kömür, neft və qaz - qlobal iqlim dəyişikliyinə ən böyük töhfə verənlərdir. Qlobal istixana qazı emissiyalarının 75 faizindən çoxunu və bütün karbon qazı emissiyalarının təxminən 90 faizini təşkil edir. Bu qlobal istiləşməyə və iqlim dəyişikliyinə gətirib çıxarır. Planetimiz hazırda bəşər tarixinin istənilən vaxtından daha sürətlə istiləşir və normal təbii tarazlığı pozur. Bu, insanlar və Yerdəki bütün digər həyat formaları üçün bir çox risklər yaradır.**

# İqlim dəyişikliyinin səbəbləri və nəticələri

Ümumiyyətlə qəbul edilir ki, istixana qazları qlobal istiləşmənin əsas səbəbidir. İstixana qazları Yerin iqlim tarixini anlamaq üçün də vacibdir. Araşdırmalara görə, istixana qazlarının saxladığı istilik enerjisi ilə atmosferin istiləşməsi nəticəsində yaranan istixana effekti Yerin temperaturunu tənzimləyən əsas prosesdir.

Günəş iqlim sistemində əsas istilik mənbəyidir. Yer səthində istiliyə çevrilən günəş enerjisi Yerin iqlimini formalaşdıran ayrılmaz tərkib hissəsidir. Uzun müddət nəzərə alsaq, bu çərçivədə Günəş əsas ardıcıllıqla inkişaf etdiyi üçün daha parlaq olur və daha çox enerji buraxır. Bu inkişaf yer atmosferinə də təsir edir.

Günəş aktivliyinin dəyişməsi Kiçik Buz Dövrünün başlanmasında, eləcə də 1900-1950-ci illər arasında müşahidə edilən bəzi istiləşmələrdə mühüm amil hesab olunur. Günəş fəaliyyətinin tsiklik təbiəti hələ tam başa düşülməyib.

İqlimə təsir baxımından Yerin orbitindəki dəyişikliklər günəş aktivliyindəki dalğalanmalara bənzəyir, çünki orbitin mövqeyində kiçik sapmalar günəş radiasiyasının Yer səthində yenidən paylanmasına səbəb olur. Orbitin mövqeyində belə dəyişikliklərə Milankoviç dövrləri deyilir, onlar Yerin, Ayın peykinin və digər planetlərin fiziki qarşılıqlı təsirinin nəticəsi olduğu üçün yüksək dəqiqliklə proqnozlaşdırıla bilir. Orbital dəyişikliklər son buz dövrünün buzlaq və buzlaqlararası dövrlərinin növbələşməsinin əsas səbəbləri hesab olunur.

İqlim dəyişikliyi prosesi geri dönməzdir və daha da pisləşəcəyi proqonozlaşdırılıb. Bu nəticə BMT-nin 9 avqust 2021-ci ildə təqdim etdiyi hesabatdan gəlir. Mütəxəssislər bu problemin yaxın onilliklərdə artacağını və bunun ilk növbədə kənd təsərrüfatı və səhiyyəyə mənfi təsir edəcəyini proqnozlaşdırırlar.

İqlim dəyişikliyi orta iqlim göstəricilərinin, yəni havanın temperaturu və yağıntının dəyişdiyi bir prosesdir. İqlim dəyişikliyinə həm də quraqlıq, şiddətli tufanlar, daşqınlar kimi anomaliyalar, yəni bu gün müşahidə etdiyimiz bütün ekstremal vəziyyətlər daxildir.

1815-ci ildə İndoneziyada Tambora vulkanının fəlakətli partlayışı növbəti üç il ərzində bütün dünyada havanın temperaturunun azalmasına səbəb olmuşdur.1991-ci ildə Filippində Pinatubo vulkanının püskürməsi, əhəmiyyətli miqdarda kül emissiyası ilə müşayiət olunan, iqlimşünaslıq nöqteyi-nəzərindən əsrin ən mühüm püskürməsidir. Püskürməsindən sonra iki il ərzində havanın temperaturu aşağı düşdü və 1992-ci ildə qlobal orta temperaturun sapması mənfi 0,4-0,6 °C olmuşdur. Beləliklə, yalnız bir püskürmənin təsiri cari əsrdə qlobal istixana effekti ilə müqayisə edilə bilir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidmətinin rəis müavini Rafik Verdiyev SİA-ya açıqlamasında bildirib ki, son otuz il ərzində baş verən iqlim dəyişikləri bir çox problemlərin üzə çıxmasına səbəb olub. Xüsusilə qlobal səviyyədə istiləşmə artır, şimal ərazilərdə buzlaqların əriməsi, intensiv yağışların artması və nəticədə sahilyanı ərazilərin su altında qalması, təsərrüfata, insan sağlamlığına ziyan vurması və s. digər quraq ərazilərdə isə səhralaşma, quraqlığın düşməsi, su çatışmamazlığı problemi kənd təsərrüfatı məhsulların azalmasına gətirib çıxarır. Eyni zamanda təhlükəli hidrometoloji hadisələrin baş verməsi və ampermetodun da yüksəlməsinə səbəb olur. Xüsusilə də 40 dərəcədən yüksək hava kütlələri, küləklərin artması get-gedə artmaqdadır. İqlim dəyişikliklərin özünə gəldikdə isə yaranmasının əsas səbəbi atmosferə buraxılan parnik qazlarının miqdarının artmasıdır ki, nəticədə də qloblar istiləşmə get-gedə özünü daha çox biruzə verməyə başlayır. Son on ildə temperatur 1,5 dərəcə artıb. Heç olmasa temperaturu bu səviyyədə saxlamaq lazımdır ki daha da artmasın. Buna görə də dövlətlər beynəlxalq tədbirlərdə yığışıb öhdəlik götürüblər ki, öz ölkələrində sənayedə atmosferə buraxılan qazları tələb olunan miqdarda azaltsınlar. Bu dəyişmələrin də sürəti və hüdudu azalsın. Təəssüflər olsun ki, həmin öhdəliklərə hələ də tam əməl olunmur və bu proseslər davam edir. Azərbaycanda da bildiyimiz kimi həm su qıtlığı, həm quraqlıq hadisələri son vaxtlar daha çox artmaqdadır. Əlbəttə ki, dövlət tərəfindən bu sahədə işlər aparılır, xüsusilə su ilə bağlı, alternativ su mənbələrdən istifadə, su infstrakturunda itkilərin qarşısının alınması, suvarmada müasir texnologiyanın tətbiqi və s. tədbirlər dövlət proqramlarında icra olunmaqdadır. Bundan başqa 2022-ci ildə Dövlət Su Komissiyası yaradılıb. Eyni zamanda Milli Su Strategiyası yaradılıb ki burada da qısa, orta və uzunmüddətli dövrlər ərzində su sahələrinin mühafizəsi onlardan səmərəli istifadə tədbirləri görmək nəzərdə tutulur.

"Biosfer" İctimail Birliyinin sədri Qorxmaz İbrahimli isə bildirir ki, son onilliklərdə atmosferdəki təbii proseslərdə ciddi bir dəyişikliklər qeydə alınmayıb. Çünki on il aralıqda baş vermiş müxtəlif təbiət hadisələri dəyişikliklər demək deyil. Əgər on ildə bu və ya digər bir dəyişikliklər olarsa, dünya öz ömrünü necə deyərlər, çoxdan başa vurardı. Atmosferdə daim proseslər gedir. Eləcə də qalaktikamızda davamlı hadisələr baş verməkdədir. Yüz və daha çox illər arasında müxtəlif dəyişikliklər qeydə alınır. Ancaq dünyada müxtəlif atmosfer və digər proseslər əsasən 19-cu yüz ildən başlayaraq qlobal qeydiyyata alındığından bu dəyişikliklər haqqında bilgilərin də yaşı çox qədim deyil. Sadəcə dağıdıcı zəlzələlər, vulkanlar arxivləşdirilmişdir. Leysan və digər atmosfer hadisələri də ayrı-ayrılıqda haralardasa baş verərkən not alınmış ola bilər.

Demək, söhbət qlobal istiləşmə və ona səbəb olan amillərdən gedə bilər. Qlobal istiləşmə isə 1800-cü illərdə qeydə alınmış orta hərarətdən bir dərəcə üstündə yüksək olduğu alimlər tərəfindən isbatlanıb.

Əgər qlobal istiləşməni gözə alsaq, deyə bilərik ki, son yüz ildə atmosfer qatında ciddi dəyişikliklər olub. Əlbəttə bu dəyişikliklər biomüxtəlifliyə də təsirsiz ötüşmür. Dəyişikliklərin səbəbi isə birinci növbədə atmosferdə karbon missiyasının xüsusi çəkisinin artması ilə bağlıdır. Karbon dioksidin artma səbəbi isə sənayenin plansız inkişafı, tullantıların çəkisinin artması və s.-dir. Bununla bağlı çoxlu səbəblər göstərmək olar. O cümlədən müharibələri də əlavə edə bilərik ki, 20-ci əsrdə iki Cahan savaşı olub.

Atmosferdə baş verən dəyişikliklər insanın təsiri olmazsa, heç bir təhlükə yaratmır. Dərd insanın sayəsində baş verən dəyişikliklərdir ki, onu durdurmaq çox çətindir. Buna baxmayaraq böyük dövlətlər və BMT təbiətin qorunmasını maksimum təmin edə bilmək üçün müxtəlif beynəlxalq sənədlər imzalayıblar. Kioto protokolu, Paris anlaşması bunlara misal ola bilər. Lakin elə atmosferə zərərli maddələrin daha çox atılması da dediyimiz böyük, inkişaf etmiş dövlətlərdən olur.

Bir kərə atmosferdə gedən proseslərin qarşısını heç bir güclə almaq olmaz. Lakin insanın təsərrüfat fəaliyyəti sayəsində Yer kürəsində gedən proseslər atmosferdə dəyişikliklərə səbəb olmaqdadır. Qarşısını almaq deyil, prosesi qismən zəifləmək üçün ən azından karbon emissiyasının azaldılması ilə istiləşməni qismən azaltmaq olar. Onun da sayəsində quraqlıq və ya anomal yağıntıların düşməsi kimi məsələlərdə cüzi dəyişikliklər ola bilər. Hər şeydən öncə insan oğlu Tanrının verdiyi bu gözəllik və ehtiyatların bir gün bitmə ehtimalı olduğunu bilməlidir. Bu isə çağımızda olmasa da min il sonra baş verə bilər. Olmaması üçün əllərimizdən gələnləri etməliyik. Birinci növbədə insanlar çevrəni çirkləndirməkdən çəkinməlidirlər. İsrafçılıqdan qaçmalıdırlar. Su öndə olmaqla bütün istehlak məhsullarını qənaətlə tükətməlidirlər. Ayrıca götürsək, ölkəmizdə qlobal istiləşmə, qıtlıq, səhralaşma və s. kimi problemlərin qismən önlənməsi üçün qərarlar alınmaqdadır.

"İqlim ehtiyyatlarından kənd təsərrüfatı istehsalında səmərəli istifadə məsələsi ərzaq problemini həll etmək üçün qarşıya qoyulmuş mühüm vəzifələrdən biridir". Bu fikirləri kimya elmləri üzrə fəlsəfə doktoru, ekoloq Sadiq Həsənov qeyd edib.

Onu həyata keçirmək üçün ərazimizin xüsusiyyətlərini dərindən öyrənmək, kənd təsərrüfatının daha səmərəli və sürətli inkişafını təmin edən potensial imkanları aşkara çıxarmaq tələb olunur.

Azərbaycan da qlobal iqlim dəyişmələrinin təsirindən kənarda qalmamışdır. Son 100 ildə Azərbaycan ərazisində orta illik temperaturlar 0,4-1,30C-yə qədər artmışdır. Temperatur artımı regionlardan asılı olaraq qeyri-bərabər paylanır. Son on illiklərdə Azərbaycan ərazisində kiçik dağ çaylarında sel və daşqınların sayı və gücü artmışdır.

Kioto protokolu üzrə öhdəliklərin yerinə yetirilməsinin 2-ci dövrü üçün qəbul edilmiş Doha əlavəsi 14 aprel 2015-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən ratifikasiya edilmiş və ölkə Prezidenti tərəfindən imzalanmışdır. Paris sazişi isə 2016-cı ilin aprelində imzalanmış və 2016-cı il oktyabrın 28-də Milli Məclis tərəfindən ratifikasiya olunmuşdur. Paris sazişinə əsasən Azərbaycan Respublikası Nəzərdə Tutulan Milli Səviyyədə Müəyyən edilmiş Töhfələrini Konvensiya Katibliyinə təqdim etmiş və qlobal iqlim dəyişmələrinə təsirlərin yumşaldılması təşəbbüslərinə özünün töhfəsi olaraq baza ili ilə (1990) müqayisədə 2030-cu ilə istilik effekti yaradan qaz emissiyalarının 35% azalma səviyyəsində saxlanılmasını hədəf kimi götürmüşdür.



***Havar Şəfiyeva***

# “Regional deyil, qlobal güc!”



“Taxıl məsələsində Türkiyənin barışdırıcı mövqeyi həlledici rol oynadı”. Bunu SİA-ya açıqlamasında iqtisadçı Eldəniz Əmirov deyib. Eldəniz Əmirov qeyd edib ki, Türkiyə dünya ərzaq böhranının təsirlərinin azaldılmasına Rusiya və Qərb arasında bağlantı yaratmağı bacardı: ”Artıq regional deyil, qlobal gücə çevrildi. Avropanın enerji təhlükəsizliyinin həyata keçirilməsində Azərbaycan qazına ehtiyac var. Lakin bu və-



## İQTİSADÇI AÇIQLADI

ziyyət Avropanı Azərbaycandan asılı vəziyyətə salmır. Avropanın 500 milyard kubmetr illik qaz ehtiyacı var. Bu ehtiyacın 40-42 faizi Rusiya tərəfindən ödənilirdi. Azərbaycan isə 10 milyard kubmetr ”TAP” vasitəsilə Avropaya qaz ixrac edir. Statistika göstərir ki, Azərbaycanın Avropaya nəql etdiyi qaz ilə Avropa qaz ehtiyacının 2 faizi ödənir. Amma perspektivdə ”TAP” üzərindən həcmlərin artırılması və 20 milyard kubmetrə qədər çatdırılması potensialı var”.

İqtisadçı sözlərinə əlavə edərək bildirib ki, Zəngəzur dəhlizinin fəaliyyətə başlaması təqdirdə, dəhliz üzərindən perspektivdə orta Asiya ehtiyatlarının Avropaya çatdırılması və eyni zamanda da gələcəkdə ”TAP 2” layihəsi hazırlanarsa, daha artıq həcmdə qazın ixracı mümkündür: ”Bu mənada düşünürəm ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında öz rolunu getdikcə artırır. Hazırda Rusiya qazından asılılığın azaldılması üçün Əlcazair, Qətər, Azərbaycan və digər ölkələrdən, o cümlədən, İrana qarşı sanksiyalar götürülərsə, İran qazının da ixracı nəticəsində Avropanın Rusiyadan asılılığı azalacaq. Digər bir istiqamət ABŞ da sıxlaşdırılmış Rusiya qazından asılılığı azaltmağa imkan verəcəkdir. Söhbət regional gücə çevrilməkdən gedirsə, Azərbaycan son illərdə sərgilədiyi davranışları ilə öz nüfuzunu beynəlxalq aləmdə tanıtdı. Eyni zamanda, rəqib ölkələri üstəliyib. Amma Azərbaycan və Türkiyənin davranışları bunu deməyə əsas verir ki, bunlar dünyada ən etibarlı tərəfdaş olaraq özlərini təsdiqetmə bacarıqları var. Rusiya və Amerika kimi bir sıra ölkələr müəyyən manevrlər edərək götürdükləri öhdəliklərdən boyun qaçırır və ya müəyyən manipulyativ səbəbləri yerinə yetirmirlər. Türkiyə və Azərbaycan Prezidentlərinin qeyd etdiyi kimi, ”sözümüz imzamızdır” ifadəsinə uyğun olaraq götürdüyümüz öhdəlikləri və təsdiq etdiyi mövqeyi sona qədər qoruyuruq. Azərbaycan xarici siyasətində hər zaman ədalətli mövqe sərgiləyib. Türkiyə regional deyil, qlobal güc olmaqda iddialıdır. Türkiyə prezidentinin də ”dünya 5-dən böyükdür” ifadəsi məhz buna hesablanmışdır. Yəni BMT-də olan əsas beş ölkədən böyükdür. Hər iki ölkənin öz hədəfləri və uzunmüddətli strategiyası var. Sözünün həqiqi mənasında, qardaş kimi davranışları etibarlılığı və verdikləri sözü tutması hər iki ölkənin gələcəyi üçün böyük perspektiv vəd edir”.

***Qönçə Quliyeva***

# “Düşmən 44 günlük müharibənin nəticələrini unutmamalıdır”

“Azərbaycan Ordusunun həyata keçirdiyi ”Qisas” əməliyyatı antiterror əməliyyatıdır və regionda sülhün yaradılmasına xidmət edir. Hər bir Azərbaycan əsgəri dəyərlidir və əsla heç bir əsgərimizin qanı yerdə qalmayacaq. Erməni terrorçuları dəqiq bilməlidirlər ki, Azərbaycan ərazisini tərk etmək istəməyən hər bir silahlı quldur eyni aqibəti yaşayacaq. Məsələnin hüquqi tərəfinə gəldikdə isə Azərbaycanı 3 avqust əməliyyatına təşviq edən erməni təxribatı olub”. Bu sözləri SİA-ya açıqlamasında deputat Hikmət Babaoğlu deyib.



Onun sözlərinə görə, terrorçu Ermənistan dövləti bu günə qədər də 10 noyabr üçtərəfli bəyannaməsində üzərinə götürdüyü öhdəliyi yerinə yetirməyib: ”Üstəlik bəyannamənin 4-cü və 6-cı bəndlərini manipulyasiya etməyə çalışıb. Ermənistanın təhlükəsizlik şurasının katibi Armen Qriqoryanın Laçınla bağlı son açıqlaması da bunun sübutudur. Bu, özlüyündə siyasi-diplomatik təxribatdır. Bəyannamədə Rusiya süllhməramlılarının daxil olmasına paralel olaraq bütün erməni terrorçu birləşmələri Azərbaycan ərazisini tərk etməli idi. Ancaq bu günə qədər hələ də suveren ərazilərimizdə erməni silahlı quldurları var. Üstəlik sülhməramlıların arxasında gizlənərək şanlı Azərbaycan əsgərini şəhid ediblər. Azərbaycanın beynəlxalq hüquqla və Milli Konstitusiyası ilə tam haqqı var ki, öz ərazisinin suveren hüquqlarını təmin etsin. Elə 3 avqustda həyata keçirilən ”Qisas” əməliyyatı da buna xidmət edirdi.

Bizim qarşımızda dəqiq məqsəd və vəzifələr var. Onlardan biri də münaqişəyə qədər Xankəndində, Xocalıda, Ağdərədə, Əskəranda yaşayan azərbaycanlıların öz evlərinə qayıtmasıdır. Bu məsələ də üçtərəfli bəyannamədə öz əksini tapıb. Üçtərəfli bəyannamənin bütün tələbləri qeyd-şərtsiz yerinə yetirilməlidir. Ermənistan kapitulyasiya aktı ilə üzərinə götürdüyü öhdəlikləri tam yerinə yetirməyənə qədər bu cür antiterror əməliyyatları həyata keçiriləcək. Vaxt demək olar ki , yoxdur. Azərbaycan öz ərazisində bütün hüquqlarını tətbiq edib başa çatdıracaq. Buna qarşı gələnləri isə yeni antiterror əməliyyatları gözləyir. Ermənistan bilməlidir ki, nə dünya 30 il əvvəlki dünyadır, nə də Azərbaycan 30 il əvvəlki Azərbaycandır. Düşmən 44 günlük müharibənin dərslərini unutmamalıdır. Əks təqdirdə yeni faciələrə hazır olmalıdır”.

***Arzu Qurbanlı***

## ”ABŞ Azərbaycanla Ermənistan arasında dialoqa kömək etməyə hazırdır”



ABŞ Azərbaycanla Ermənistan arasında dialoqa kömək etməyə hazırdır. Trend-in məlumatına görə, bunu ABŞ dövlət katibi Entoni Blinken Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ilə telefon danışığı zamanı deyib.

Danışıq zamanı E.Blinken bildirib ki, ABŞ Azərbaycanla Ermənistan arasında dialoqun və regionda uzunmüddətli sülhün təmin olunması üçün öz həmfikirləri ilə qarşılıqlı fəaliyyətə hazırdır.

## “Neftçi”dən əzmkar qələbə!



Futbol üzrə UEFA Konfrans Liqasında 3-cü təsnifat mərhələsinin oyunları davam edir. Turnirdəki yeganə təmsilçimiz ”Neftçi” növbəti qarşılaşmasına çıxıb. Laurentsiu Regekampfın komandası Avstriya ”Rapid”ni qəbul edib. ”Bakcell Arena”da keçirilən görüş ”ağ qaralar”ın 2:0 hesablı qələbəsi ilə başa çatıb.

Qeyd edək ki, komandalar arasında cavab oyunu avqustun 11-də Vyanada keçiriləcək.

# İdmançılarımızın XVI Avropa Gənclər Yay Olimpiya Festivalında uğuru

Azərbaycanda Olimpiya Hərəkatının inkişafı Azərbaycan Prezidenti İlham Əliyevin adı ilə bağlıdır. Belə ki, 1992-ci ildə Milli Olimpiya Komitəsi fəaliyyət göstərməyə başladı. 1997-ci ildən Milli Olimpiya Komitəsinə Cənab İlham Əliyev Sədr seçiləndən sonra Azərbaycanda Olimpiya Hərəkatı vüsət almağa başladı. Bu illər ərzində Milli Olimpiya Komitəsinin təşkilati və quruculuq işləri bir an belə səngimədi. Azərbaycanın hər bir yerində yeni və müasir idman komplekslərinin tikintisinə başlanıldı. Azərbaycan Milli Olimpiya Komitəsi başqa Olimpiya komitələri üçün örnək oldu. MOK işini Olimpiya Xartiyası və nizamnaməsinin tələbləri əsasında qurub, fəaliyyətini ölkəmizdə Olimpiya hərəkatının və idmanın inkişafına xidmət edən məqsədləri həyata keçirməyə yönəldib. Bu gün Azərbaycanın dünyanın aparıcı idman ölkələrindən biri kimi tanınmasında MOK-un məqsədyönlü fəaliyyətinin özünəməxsus yeri var. Azərbaycanın Olimpiya və idman həyatında son dərəcə önəmli hadisələr baş verib. Bu hadisələrin miqyası Azərbaycan hüdudlarını da aşaraq, dünyada və Avropada Olimpiya hərəkatının inkişafına mühüm töhfə verməsi ilə yadda qalıb.

## AZƏRBAYCAN DÜNYADA ƏN SÜRƏTLİ TEMPLƏ İNKİŞAF EDƏN İDMAN ÖLKƏSİDİR

Olimpiya oyunlarında iştirakımızın bu günə qədərki tarixinin ən böyük uğuru 2000-ci ildə Avstraliyanın Sidney şəhərində keçirilmiş XXVII Yay Olimpiya oyunları oldu. Sidney olimpiadasında Azərbaycan komandası, 199 ölkə arasında 34-cü yeri tutdu. Olimpiyaçılarımız Avropa ölkələri arasında 23-cü oldular. Daha sonra idmançılarımız 2004-cü ildə keçirilmiş Afina olimpiya oyunlarında 202 ölkə sırasında 50-ci yeri, 2008-ci ildə Pekində keçirilən 29-cu Olimpiya oyunlarında komanda hesabında 39-cu yeri, 2012-ci ildə keçirilən XXX London Yay Olimpiya oyunlarında 204 iştirakçı ölkə arasında 30-cu yeri, 2016-cı ildə Rio-de-Janeyroda keçirilən XXXI Yay Olimpiya 39-cu yeri tutdular.

Artıq MOK beynəlxalq miqyasda böyük nüfuz qazanıb, fəaliyyəti və əldə etdiyi nailiyyətlərlə seçilib. Azərbaycanda keçirilən Avropa və dünya çempionatları da buna nümunədir. Belə ki, müxtəlif beynəlxalq yarışlar, bədii gimnastika, taekvando, güləş, boks, karate və s. bu kimi Olimpiya növlərinə daxil olan idman yarışları, məhz Azərbaycanda keçirilib. Əlbəttə ki, son illərdə Azərbaycanın dünyada ən sürətli templərlə inkişaf edən ölkəyə çevrilməsi də buna imkan yaradıb. Bakıda və bütövlükdə, Azərbaycanda idman infrastrukturunun yaradılması istiqamətində böyük işlər görülüb. Birinci Avropa Oyunlarının Bakıda keçirilməsi də elə ölkəmizə Avropa Olimpiya Komitəsinin inamı idi. Avropa Olimpiya Komitəsinin Baş Məclisində 2015-ci ildə Birinci Avropa Oyunlarının Azərbaycanda keçirilməsi haqqında qərar qəbul edilməsi, ilk oyunların Bakıda keçirilməsi böyük nailiyyət idi. Bu cür oyunları ilk dəfə təşkil etmək Azərbaycan üçün şərəfli olduğu qədər də məsuliyyətlidir. İlk Avropa Oyunlarında 49 ölkədən 6000-dən artıq atlet idmanın 20 növündə mübarizə apardı. Yarışlar Bakıda 21 idman obyektində keçirildi. Təbii ki, bütün bunlarla yanaşı, Azərbaycan 42-ci Ümumdünya Şahmat Olimpiadası, 17 yaşadək futbolçular arasında Avropa çempionatı, Bədii Gimnastika üzrə Dünya Kuboku, "Formula-1" kimi mötəbər yarışlara uğurla ev sahibliyi etdi və özünü dünyada idman ölkəsi olaraq tanıda bildi. IV İslam Həmrəyliyi Oyunlarının uğuru, idmançılarımızın inanılmaz qələbələri bunun daha bir parlaq nümayişi oldu. Azərbaycan 75 qızıl medalla birinci yeri qazandı. İdman arenalarında Azərbaycanın Dövlət Himninin 75 dəfə səslənməsi, təbii ki, böyük qürurdur.

Ölkə Prezidenti İlham Əliyevin bir çox idmançı və məşqçinin MOK, Gənclər və İdman Nazirliyi tərəfindən təqaüdlərlə təmin etməsi də ölkəmizdə Olimpiya Hərəkatına müsbət təsir edən amillər sırasındadır. MOK Azərbaycanda idmanın və Respublika Olimpiya Hərəkatının inkişafına xüsusi qayğı göstərir. İdman sahəsinə ayrılan diqqət və göstərilən qayğı gənclərin bu sahəyə olan marağını artırıb. Kütləvi olaraq bu sahəyə axın var. Bu gün Azərbaycanda bir çox müasir Olimpiya idman qurğuları tikilib istifadəyə verilib. Azərbaycanın bölgələrində onlarla müasir Olimpiya İdman Kompleksi tikilib. Bakıda isə ən müasir idman infrastrukturu mövcuddur. 70 min tamaşaçı yeri olan Olimpiya Stadionunu, Milli Gimnastika Arenası, Su İdmanı Sarayı və Bakı Atıcılıq Mərkəz və s. müasir idman qurğularıdır. Qeyd edək ki, 2019-cu il iyunun 21-dən 30-dək Belarusun paytaxtı Minsk şəhərində keçirilən İkinci Avropa Oyunlarında 82 idmançı ilə təmsil olunan Azərbaycan millisi 28 medal qazanaraq, komanda hesabında 50 ölkə arasında 10-cu yerdə qərarlaşdı. Komandamız Oyunları 5 qızıl, 10 gümüş, 13 bürünc medalla başa vurdu. Ümumilikdə, 200 dəst medala 43 ölkə təmsilçisi yiyələnib. Onlardan cəmi 34-ü qızıl medal sevinci yaşayıb. Bakıda keçirilmiş ilk Avropa Oyunlarında olduğu kimi, İkinci Avropa Oyunlarında da Rusiya komandası medal siyahısında birinci yeri tutdu.






*Dövlət başçısının Sərəncamı ilə festivalda ən yüksək nəticələrə görə Azərbaycan idmançıları və onların məşqçiləri mükafatlandırılıblar*




## AZƏRBAYCANIN İDMAN SİYASƏTİNİN QƏLƏBƏSİ

Azərbaycan Avropa Gənclər Olimpiya Festivalına ev sahibliyi etdi. 48 ölkəni təmsil edən 3600-dən çox idmançı qalib adı uğrunda mübarizə apardı. Azərbaycan komandası Avropanın Rusiya, Böyük Britaniya və Türkiyə istisna olmaqla, bütün ölkələrini, o cümlədən Fransa, Almaniya, İtaliya, Ukrayna, İspaniya, Çexiya, Hollandiya, Belarus, İsveçrə, Avstriya və başqalarını qabaqlayaraq festivalda 23 medal qazandı və ümumi komanda hesabında 4-cü oldu. Ölkəmizdə keçirilən yarışlar və Azərbaycanın beynəlxalq oyunlarda iştirakı Azərbaycanın idman siyasətinin qələbəsi və beynəlxalq federasiyaların ölkəmizdə aparılan işlərə, həmçinin, idman və bədən tərbiyəsi sahəsində nailiyyətlərimizə verilən qiymətin təzahürüdür. Bu günlərdə isə - iyulun 24-30-da Slovakiyada keçirilən Avropa Yeniyetmələrinin XVI Yay Olimpiya Festivalında iştirak edən Azərbaycan atletləri qalib kimi ölkəmizə dönüblər. Atletlərimiz məşqçilər Nazim İsrafilov və Tofiq Əliyev rəhbərliyi altında yarışıblar. İdmançılarımız festivalı 7 medalla başa vurublar. Belə ki, cüdoçularımız 2 qızıl, 4 gümüş və 1 bürünc medala sahib olublar. Azərbaycan idmançılarına hər zaman diqqət və qayğı ilə yanaşan Azərbaycan Prezidenti İlham Əliyev "Slovakiyanın Banska Bistritsa şəhərində keçirilən XVI Avropa Gənclər Yay Olimpiya Festivalında ən yüksək nəticələrə görə Azərbaycan Respublikasının idmançıları və onların məşqçilərinin mükafatlandırılması haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, Slovakiyanın Banska Bistritsa şəhərində keçirilən XVI Avropa Gənclər Yay Olimpiya Festivalında ən yüksək nəticələrə görə Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri birinci yeri tutan hər bir idmançı - 10 000 manat, onun şəxsi məşqçisi - 5000 manat, ikinci yeri tutan hər bir idmançı - 7000 manat, onun şəxsi məşqçisi - 3500 manat, üçüncü yeri tutan hər bir idmançı - 5000 manat, onun şəxsi məşqçisi - 2500 manat, komandanın baş məşqçisi - idman növü üzrə ən yüksək nəticə göstərmiş idmançıya görə şəxsi məşqçinin aldığı məbləğ qədər (bir dəfə) mükafatlandırılıb.Qazanılan qələbələr Azərbaycanın dünyada idman ölkəsi kimi tanınmasında rol oynayan amillərdir. Artıq idmançılarımız beynəlxalq səviyyəli yarışlarda ölkəmizi qalib gəlmiş MÜZƏFFƏR XALQ kimi təmsil edir. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin digər sahələrdə olduğu kimi, idman sahəsinə də diqqət və qayğısı bir daha onu göstərir ki, Azərbaycanda idman bundan sonra da uğurla inkişaf edəcək və idmançılarımız böyük uğurlar qazanacaq.

***Zümrüd BAYRAMOVA***

# Nikolun yalan və bəhanə manifesti






**El məsələdir, deyir, "ilanın ağına da lənət, qarasına da". Bir də bizim kənddə ermənilərdən, onların yaxşı, yaxud pis olmalarından söz düşəndə ağsaqqallar deyirdilər, erməni yaxşı ola bilməz, yalnız bir erməni o birindən yaxşı ola bilər. Əslində rəhmətliklərin sözündə danılmaz bir həqiqət var, ermənidən kimsəyə dost olmaz, xüsusən də bizə. Onların içində bir kibr, insanlığa qarşı nifrət, eqo, bir fobiya var. Bunu ermənilərlə bir şəhərdə, bir kənddə, bir məhəllədə yaşayanlar daha yaxşı bilər...**

Sözümüzün canı var. Bu gün bəzi ermənilər, daha dəqiq desək Ermənistanın keçmiş və indiki rəhbərləri barədə cəmiyyətimizdə yanlış fikirlər var. Nədir bu yanlışlıq? Bəziləri deyər ki, Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyan II və III prezidentlər Robert və Serjlə müqayisədə "yaxşı adam" təsiri bağışlayırdı. Yaxud indiki baş nazir Paşinyanın atdığı addımlar bölgədə status-kvo-nu kökündən dəyişdi və beləliklə, Nikola az qala hykəl qoymaq gərəkdir. Əslində, ilk baxışdan belə görünür ki, ya zəlzələdən, ya vəlvələdən bütün baş verənlər Paşinyanın hakimiyyətə gəlməsi ilə başlandı. Şuşada yallı, "Qarabağ Ermənistandır" kimi absurd fikir, eyni zamanda təmas xəttində baş verən təxribatlar Azərbaycanın başlayacağı təmizləmə, işğaldan azadetmə əməliyyatını tezləşdirdi.

Levon ter-Petrosyan Nikolun hakimiyyətə gəlişindən sonra onun əvvəlki prezidentlərin Qarabağla münaqişəsinin həlli ilə bağlı yürütdükləri siyasətin əlehinə addımlar atmasını ört-basdır edərək bunu belə izah edirdi ki, əslində Qarabağın müstəqilliyinin hələ 90-cı illərdə mümkünsüz olduğunu bildiyi üçün xalqa dəfələrlə müraciət etmişdi, parlamentdəki çıxışlarında da bunu daim təkrar edirdi. Amma ermənilər bunu anlamaq istəmirdilər. Eynilə Paşinyan da hakimiyyətə gələndən sonra "Qarabağ Ermənistan üçün ərazi məsələsi deyil, hüquqi məsələdir". Əslində isə Qarabağ münaqişəsini yaradan, şiddətləndirən, alovlandıran, Azərbaycanın ayrılmaz əraziləri olan daha 7 rayonu işğal edənlərin başında duran elə Petrosyanın özü idi. Onun tülkü siyasəti nəticəsində bütün baş verən cinayətlərdə - nə Xocalı soyqırımında, nə Ağdaban faciəsində, nə Cəmillidə, nə Malıbəylidə, nə də Ermənistanın özündə azərbaycanlılara qarşı törədilmiş qətliamlarda Petrosyanın adı keçmir. Sanki bir mələk kimi təqdim olunur. Halbuki, bütün cinayətlərdən birbaşa onun adı çıxır. Ermənistan parlamentində baş verən qırğında da Petrosyanın birbaşa əli var.

Onun şagirdi, şəyirdi, öyrəncisi olan Paşinyan da oxşar cığırla gedir. İlk baxışdan guya obyektiv addımlar atır, Qarabağ reallığını müdafiə edir, hərdən də Qarabağın Azərbaycana aid olduğunu dolayısı ilə təsdiq edib bəzi sadəlövhləri sevindirir də. Amma hadisələrin gedişi onu göstərir ki, Paşinyan da sələfi, müəllimi, ustadı Petrosyandan heç də geri qalmır, onun yolunu gedir, addımlarını təkrarlayır, vaxtı uzadır, hərdən də dişlərini göstərir.

Avqust ayının 1-dən etibarən Qarabağda erməni separatçılarının təxribat əməlləri sayəsində bir əsgərimiz aldığı güllə yarasında dünyasını dəyişdi, şəhidlik zirvəsinə yüksəldi.



Hadisə Laçın rayonu ərazisində baş verdi. Bəs baş verənlərə səbəb nə idi? Məlumunuz olsun ki, Azərbaycan tərəfi üçtərəfli Bəyanatın 4-cü bəndinə uyğun olaraq Laçın dəhlizinə alternativ yolun inşasını yaxın vaxtlarda bitirəcəyini və sülhməramlıların tezliklə yeni yolda öz missiyalarını davam edəcəklərini elan edəndən sonra ermənilər öz xislətlərinə uyğun olaraq destruktiv addımlarını intensivləşdirməyə başladılar. Bu barədə erməni seqmentlərinin yazdıqlarına diqqət edək və Ermənistan rəhbərliyinin nə qədər ikiüzlü, sözündən qaçan, imzasına hörmət qoymayan biriləri olduqları göstərək. Paşinyan Laçın dəhlizinin artıq qapanmaqda olduğunu qətiləşdirəndən, vəziyyətin gərginləşəcəyini biləndən sonra manipulyasiyalar etməyə, guya Ermənistanın Bəyanatın bütün şərtlərini yerinə yetirdiyini həyasızcasına təkrarlamağa başlayıb. El məsəlidir, zor şəriətlə yarıdır. Dəmir yumruqdan sonra Paşinyana dəyə sərt sillə deyəsən onu ağıllandırıb. Düzdür, hələ də hətərən-pətərən vurur, amma düşünürük ki, kəkələyə-kəkələyə özünə gələcək, səhv etdiyini anlayacaq.

Ermənistan hökumətinin başçısı hökumətin iclasında qeyd edib ki, "Azərbaycan Ermənistanın verdiyi imkanlardan istifadə etmir(?!). Ermənistan bu gün də Naxçıvanla Azərbaycan arasında rabitəni təmin etməyə hazırdır". Onun sözlərinə görə, Bakı bəyan edir ki, Ermənistan Naxçıvanla Azərbaycanın qərb rayonları arasında əlaqəni təmin etməyi öhdəsinə götürüb. "Biz istənilən vaxt bu əlaqəni təmin etməyə hazırıq, lakin Azərbaycan bizim verdiyimiz imkandan istifadə etmir. Bu gün də biz onlara deyirik ki, Ermənistan qanunvericiliyi çərçivəsində onlar sərhədlərimizi keçib Naxçıvana gedə bilərlər. Elə bu gün", - Paşinyan bildirib.

Yəqin ki, Paşinyan Azərbaycan Prezidenti İlham Əliyevin çıxışını unudub. İlham Əliyev qeyd edib ki, əgər Laçın dəhlizi varsa, Zəngəzur dəhlizi də olmalıdır. Əks təqdirdə Azərbaycan oxşar addım atmaq məcburiyyətində qalar, Laçın dəhlizini bağlaya bilər.

Paşinyan çıxışında xatırladıb ki, ötən ildən Ermənistan gömrük xidmətinin və sərhəd mühafizəsinin məntəqələri bir neçə məntəqədə fəaliyyət göstərir. Azərbaycan vətəndaşları bu keçidlər vasitəsilə sərhədi keçərək Naxçıvana daha da gedə bilərlər. Onun sözlərinə görə, Qazax-Berd, Qazax-İcevan, Basarkeçər (Vardenis), Sisian, Arazdəyən,



Gorus və digər ərazilərə avtomobillə getmək olar. Yeni yolların tikintisinə gəlincə, üçtərəfli bəyanatda deyilir ki, bu, tərəflərin razılığı ilə baş verməlidir, "marşrutun müzakirəsini ikinci dərəcəli məsələ hesab edirik. Bu, hüquqi mexanizmlər hazırlandıqdan və işə salındıqdan sonra nəzərdən keçirilməlidir".

Paşinyan əlavə edib ki, Ermənistan qanunvericiliyə uyğun olaraq rusiyalı həmkarlarının köməyi ilə yol hərəkətinin təhlükəsizliyinə zəmanət verməyə hazırdır. Guya indiki eskalasiya üçün Azərbaycan Laçın dəhlizinin yeni marşrutu məsələsini bəhanə edir. Belə çıxır ki, həm Laçın dəhlizi, həm də Zəngəzur dəhlizi Ermənistanın və Rusiyanın nəzarəti altında fəaliyyət göstərəcək. Azərbaycan isə kənarda dayanıb məğlub Ermənistanın diqtəsinə əməl etməlidir, eləmi? Nikol Paşinyan bu gün hökumətin iclasında bildirib ki, Azərbaycanın bu cür ifadələri və bəyanatları həm də 9 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın pozulmasıdır. Bəyanatın 6-cı bəndində deyilir: "Tərəflərin razılığı ilə Azərbaycan ərazisində yeni nəqliyyat yolunun tikintisi planı Yaxın üç ildə Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi müəyyən ediləcək, sonradan bu marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingenti yenidən yerləşdiriləcək". Tutaq ki, orada yazılanlar erməni baş nazirin anladığı, qandığı kimidir. Marşrut kiminlə və nə üçün razılaşdırmalıdır? Əsas söhbət Laçın şəhərindən yan keçən yeni yoldan gedir. Bunu da Azərbaycan öz vəsaiti hesabına qısa müddətdə həyata keçirib. Bəhanə, qarın ağrısı nəyə lazımdır? Bəs Ermənistan bu yolu haradan çəkbək istəyirdi? Bəlkə, fqürsət düşmüşkən, bəhanən bitmişkən Tərtər-Goranboy-Gəncə-Qazax-Berd marşrutunu təklif edəsən? Bir məsəl də var, deyil itin kəlləsini xonçaya qoydular, diyirlənib yerə düşdü. Ermənilərə nə qədər güzəştə getdikcə qudururlar, yeni tələblər irəli sürürlər, təzə gəlin kimi naz edirlər. Onlara bu imkanı yaratmaq lazım deyil. Harada tutdunsa...

Nikol xüsusən daxili auditoriyaya ünvanlanmış çıxışında deyib ki, hazırda Rusiya, Ermənistan və Azərbaycan tərəfindən üçtərəfli formatda təsdiq edilmiş bir dənə də olsun plan yoxdur və biz bir neçə dəfə təklif etmişik, indi də bunu etməyi, yəni planı üçtərəfli formatda təsdiq etməyi təklif edirik: "Bəyanat təkcə yeni yolun tikintisi ilə bağlı deyil, çox mürəkkəb və üçtərəfli proses olan sülhməramlı qoşunların yerdəyişməsi planı haqqındadır. Hazırda heç bir planla razılaşmamışıq, çünki bizə belə bir planın layihəsi belə təklif olunmayıb".

Nikolun çıxışından belə görünür ki, Azərbaycanın yeni yolu təkbaşına inşa etməsindən yaman ruhlanıblar, iştahlarına yeni dad, iy gəlib. Yeni yolda qaz və internet xəttinin olmamasından gileylənirlər. Yəni, Azərbaycan, bu xətləri də çək. Azərbaycan yoldan başqa digər kommunikasiya xətlərinin çəkilişinə heç vaxt razı olmayacaq və belə bir planı da yoxdur. Çünki, 3 ildən sonra Azərbaycanın razılıq vermədiyi səbəbindən Rusiya sülhməramlıları Qarabağı, o cümlədən Laçın dəhlizini tərk etmək zorunda qalacaq. Eyni zamanda sülhməramlıların indi müvəqqəti yerləşdikləri ərazilər Azərbaycanın hüquqi idarəçiliyinə keçəcək. Belə bir mənzərədə Laçın dəhlizi ilə internet və qaz xəttinin çəkilməsinə nə ehtiyac var, ay Nikol?

Ermənistanın ərazi idarəetmə və infrastruktur naziri Qnel Sanosyan isə deyib ki, artıq Laçın dəhlizinin yeni marşrut xəttinin tikintisinə başlanılıb: "Alternativ yolun tikintisi yaza qədər yekunlaşacaq. Texnika işləyir - yol çəkilir. Biz tikintini üç hissəyə bölmüşük və fəal işləyirik". Bundan əvvəl isə Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan bəyan edib ki, Azərbaycanın Laçın dəhlizinin başqa marşrutla əvəzlənməsi tələbi qeyri-legitimdir. Ermənistan Xarici İşlər Nazirliyi də Azərbaycanın 9 noyabr tarixli bəyanatına əsasən yaradılmış Laçın dəhlizində rejimin dəyişdirilməsi ilə bağlı bəyanatlarını qəbuledilməz adlandırıb.

İndi ermənilərin hansına inanasan, kiminlə o Bəyanatın müddəalarını müzakirə edəsən? Yaxud bu məsələ Ermənistanla müzakirə edilməlidirmi? Ermənistanın və Paşinyanın yalan maşını nə vaxta qədər işlək olacaq? Birdəfəlik anlamaq, qanmaq və başa düşmək lazımdır ki, Qarabağ və sərhədləri daxilində inşa edilən və ediləcək istənilən yol infrastrukturu Azərbaycanın daxili layihəsidir. Onun necə və neçəyə inşa edilməsi də bizim məsələmizdir. Ermənilər "bildirçinin bəyliyi darı sovulana qədərdir", məsəlini də unutmamalıdırlar. Ruslar da, okeanın o tayından gələnlər də müvəqqətidir, qonşumuz olmaq, sakit oturmaq istəyirsinizsə elə olduğunuz yerdə qalın. Başqalarının təhriki ilə isti yerinizi soyuq etməyin, artıq nə zaman, nə də Azərbaycan əvvəlki deyil...

***V.VƏLİYEV***

***P.S. Qarabağda - Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərdə sözügedən kontingentlə bağlı daha bir qalmaqallı informasiya yayılıb. Belə ki, ötən gün Azərbaycan Ordusunun "Qisas" əməliyyatından sonra Rusiya sülhməramlıları qanunsuz erməni hərbi birləşmələrinin daha çox qeydinə qalmağa başlayıblar. Məlumata görə, sülhməramlılar bəzi postlarda erməni terrorçularla birgə "keşik çəkməyə" qərar verib. Bu cür "tədbirlər"in bölgədə "gərginliyi azaltmağa" xidmət etdiyi vurğulanıb.***

TƏHLİL + YANAŞMA

# Mina müharibəsi...

**Müharibə... Bu səkkiz hərfdən ibarət sadə bir söz böyük bədbəxtlikləri, ölümləri, dağıntıları, xarabalıqları, acıları özündə ehtiva edir. Müharibə həsrət, hicran, göz yaşıdır. İnsan övladının hər zaman ondan uzaq olmasını istədiyi hadisədir. Lakin çox təəssüf ki, bəzən istəməyərəkdən həyatımıza müharibələr daxil olur. Biz o müharibələrin acılarını yaşayanlara çevrilirik.**

Azərbaycan xalqı da əsrlər boyu müharibələrə məruz qalıb. Yadelli işğalçıların hücumları, torpaq, ərazi, sərvət iddiaları tarixin bütün əsrlərindən bizə məlumdur. Bu müharibələr xalqımıza nə acılar yaşadıb, bilirik. Parçalanmışıq, ikiyə bölünmüşük, ərazilərimiz xarabalıqlara çevrilib, itkilərimiz bağrımızın dağı olub. Lakin sanki alın yazımız olub müharibələr, nə bitib, nə tükənib. Ötən əsrdən bu yana şahidi olduğumuz Birinci və İkinci Vətən müharibələri isə qonşuluqdan kənar acgöz qonşumuzun torpaqlarımıza əsassız iddialarının nəticəsi olub.

1990-cı illərdə Birinci Vətən Müharibəsində itirdiyimiz torpaqlarımızı 30 il sonra İkinci Vətən Müharibəsində düşməndən geri alıb Zəfər qazandıq. Müharibə bitdi. Xislətsiz ermənilər məğlubiyyətlərindən iki ilə yaxın müddət keçməsinə baxmayaraq hələ də minalanmış ərazilərin xəritələrinin olmadığını iddia edərək onları gizlədirlər. Nəticə isə budur ki, müharibə bitib, lakin onun bəlaları bitməyib. Qarabağda hazırda mina müharibəsi davam edir. Müharibədən sonra həm ərazilərimizin minalardan təmizlənməsində çalışanlar, həm xidməti vəzifəsini yerinə yetirmək üçün, həm də digər səbəblərdən orada olanlar arasında minaya düşüb həyatını itirənlər yüzlərlədir.

## Dünya susduqca...

Birinci Vətən Müharibəsindən İkinci Vətən müharibəsinədək olan 30 illik zaman kəsiyində dünyanın bütün beynəlxalq təşkilatları susdu. Bizin dünya ilə bir olan səsimizi eşitmədilər. Haqq səsimizə səs vermədilər. Torpaqlarımızın işğalı, minlərlə soydaşımızın ev-eşiyindən didərgin düşməsi, insan hüquqlarının vəhşicəsinə pozulması ilə barışdılar. Susdular. Sanki erməni adlı nankor torpaqlarımızı işğal etməkdə, minlərlə azərbaycanlını qətlə yetirməkdə, insanları evlərindən zorla çıxarmaqda, onların mal-mülkünü talan etməkdə, şəhadətə yetən soydaşlarımızın meyitlərinə işgəncə verməkdə haqlı imiş. Əzəli dədə-baba torpaqlarımızda daşı daş üstə qoymamaqda, mədəni-tarixi abidələrimizi dağıtmaqda, məscidlərimizi təhqir etməkdə, sərvətlərimizi talayıb dünya bazarlarına çıxarmaqda sanki haqlı imiş.

Dövlətimizin başçısı fəaliyyəti dövrünün 17 ilini bütün dünyanı Qarabağın haqq səsinə səs verməyə çağırsa da, beynəlxalq təşkilatlar qarşısında bu məsələnin həllini qoysa da, yüksək ali tribunalardan bu torpaqların Azərbaycan xalqına məxsus olduğunu tarixi faktlarla əsaslandırsa da, Birinci Vətən Müharibəsində şəhid olmuş soydaşlarımızın faciələrindən danışsa da, dünya susdu. Bu tarixi ədalətin həlli üçün heç bir iş görmədi. Biz sülhsevər xalq olduğumuz üçün problemin sülh yolu ilə həll olunmasını istədik. Lakin bu istəyimizi dəstəkləyən olmadı.

Belə olduqda çarə müharibə yolu ilə torpaqlarımızın geri alınması oldu. Çünki bu xalq üçün torpaq müqəddəsdir. Torpağının hər qarışı üçün bu xalq əsrlərlə mübarizə aparıb. Erməninin havadarları gücünə və o dövrdə bizim hakimiyyətdə olan səriştəsiz rəhbərlərin satqınlığı ilə işğal etdiyi torpaqlarımız onlarda qala bilməzdi. Biz müharibə üçün özümüzə güc toplayırdıq. Bu gücü hiss edəndə, müharibəyə hazır olanda ayağa qalxıb torpaqlarımızı geri alacaqdıq. Bu, belə də oldu. Ölkəmizin iqtisadi inkişafı nəticəsində milli ordumuzu gücləndirməklə bu müharibəyə hazır olduq. 2020-ci ilin 27 sentyabrından 10 noyabrınadək 44 gün ərzində düşmənə ağır zərbələr endirməklə onlara hədlərini göstərdik, qarşımızda diz çökməyə məcbur etdik.

Dünya sussa da, haqq səsimizə səs vermədə də, biz tarixi ədalətin bərpasına nail ola bildik. Böyük Zəfər qazanaraq həmin susanlara kimliyimizi isbatladıq.

## Ermənilərin Azərbaycana qarşı terror siyasəti davam edir

Çünki dünya yenə də susmağa davam edir. 44 günlük Vətən müharibəsində ermənilərin dinc əhalinin yaşadığı əraziləri nəhəng artilleriyalardan atəşə tutmasına, evləri-həyətləri dağıtmasına, insanların ömrünü sonlandırmasına, Gəncəyə atdıqları raketlə neçə-neçə uşağın ölməsinə, valideynlərini itirməsinə, dağıntılara səbəb olmasına susduqları kimi, artıq iki ilə yaxındır düşmənin minalanmış ərazilərin xəritəsini verməli olduğu halda verməməsinə də susurlar. Bu isə müharibədən ötən dövr ərzində dəfələrlə insanların minaya düşərək həyatlarını itirmələrinə səbəb olub. Bu hadisələrin növbətisi avqustun 2-də baş verdi. Minatəmizləmə işləri ilə məşğul olan şirkətin 3 əməkdaşının Füzuli rayonunun Qaraxanbəyli kəndi ərazisində piyada əleyhinə minaya düşərək müxtəlif bədən xəsarəti alması ermənilərin Azərbaycana qarşı terror siyasətinin davamıdır.




**Bu, məğlubiyyəti ilə hələ də barışa bilməyən düşmən ermənininin gizlətdiyi xəritələr ortaya çıxanadək davam edəcək**

Bu və bundan əvvəl bir neçə dəfə soydaşlarımızın minaya düşərək həyatlarını itirməsi və ya ağır bədən xəsarəti alması Ermənistanın minalanmış ərazilərin xəritəsini təcili şəkildə təhvil verməli olduğunun daha bir nümunəsidir. Lakin onlar bunu etmir, dünya da bu qədər insan ölümünə susur, susur...

Ötən il iyun ayının 4-də Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində hərəkət olan yolda çəkiliş qrupunun üzvlərini aparan nəqliyyat vasitəsinin tank əleyhinə minaya düşməsi nəticəsində azərbaycanlı jurnalistlərin ölüm xəbərindən təəssüfləndiyini bildirən ABŞ-ın Azərbaycandakı səfiri Metyu Brayza demişdi: "Azərbaycan hökuməti minaları zərərsizləşdirmək üçün mümkün olan hər şeyi edir. Amma Ermənistanın bu xəritələri təhvil verməsi beynəlxalq humanitar hüququn tələbidir. Buna heç bir bəraət qazandırmaq olmaz. Bu, beynəlxalq humanitar hüququn pozulması deməkdir. Ümid edirəm ki, ATƏT-in Minsk qrupu və həmsədrlər, eləcə də Avropa İttifaqı Ermənistanı həmin xəritələri təhvil verməyə çağıracaq".

Həmin çağırışdan bir ildən artıq vaxt keçsə də, lakin hələ də Minsk qrupu, Avropa İttifaqı bu insan itkilərinə reaksiyasız şəkildə öz fəaliyyətlərini davam etdirirlər. Elə bu səbəbdən də artıq Azərbaycan işğala son qoyub, Azərbaycan öz ərazi bütövlüyünü hərbi və siyasi yolla təmin edib. Belə olduğu halda artıq Minsk qrupuna ehtiyac yoxdur, biz Minsk qrupu ilə vidalaşmışıq, onlarla sağollaşmışıq, deyən dövlətimizin başçısı fikrini belə tamamlamışdır: "Lakin təəssüflər olsun ki, Ermənistan tərəfi və digərləri bu qrupu canlandırmaq istəyirlər. Bildirmək istəyirəm ki, bu, qeyri-mümkündür. Artıq o qrup ölüdür, cansızdır. Biz işğaldan xeyli əziyyət çəkmişik və bunu açıq-aydın şəkildə bildiririk. Düşünürəm ki, ATƏT-in Minsk qrupu ilə bağlı hər hansı spekulyasiya nəinki qeyri-məhsuldardır, eyni zamanda dağıdıcıdır, regionda sülhün bərqərar olması üçün dağıdıcı təsirə malikdir".

## Ermənistan regionda sülh, təhlükəsizlik və əməkdaşlığın reallaşdırılmasına əngəldir

Cenevrə Konvensiyasına və beynəlxalq protokollara görə tərəflər minalanmış ərazilərin xəritələrini müharibə başa çatdıqdan sonra bir-birinə təqdim etməlidirlər.





Ermənistan isə beynəlxalq sənədlərə, dövlətinin rəsmisinin imzaladığı kapitulyasiya aktına zidd olaraq xəritələri hələ də Azərbaycana təqdim etmək fikrində deyil. Hələ üstəlik həyasızcasına bu xəritələrin, ümumiyyətlə, olmadığını da iddia edirlər. Lakin bu, onların növbəti yalanı, məğlubiyyətlərinin acısından gizlətdikləri, əslində isə var olan xəritələrdir.

Birinci Vətən Müharibəsindən sonra 2000 nəfərdən çox soydaşımız mina qurbanı olmuşdur. Bu gün azad etdiyiniz torpaqlarımızın isə təqribən 13 kvadratkilometri minalarla əhatə olunmuşdur. Bu ərazilərdə dəfələrlə bədbəxt hadisələrin baş verməsi minalanmış ərazilərin xəritəsinin olmaması səbəbindəndir. Odur ki, mina qurbanı olan soydaşlarımızın sayı 3000-ə yaxınlaşır.

Azərbaycan Respublikasının Baş Prokurorluğu və Daxili İşlər Nazirliyinin ötən ilin 4 iyununda Kəlbəcərdə baş verən hadisə ilə bağlı verdikləri birgə məlumatda bildirilirdi ki, bu ərazidəki minalar Ermənistan tərəfindən Azərbaycan Silahlı Qüvvələrinin əks-hücum əməliyyatlarından sonra məcburi geri çəkilmə mərhələsində məqsədli şəkildə yerləşdirilib. Məqsəd isə Azərbaycan tərəfinə mümkün qədər ziyan vurmaq və evlərinə qayıdacaq mülki əhaliyə əlavə maneələr yaratmaqdır.





Məlumatda qeyd olunurdu ki, bir müddət öncə Kəlbəcər istiqamətində Azərbaycan ərazilərinə daxil olaraq, ərazidə yolların minalanmasına yönəlmiş təxribat törədərkən Ermənistan silahlı qüvvələrinin bir qrupu saxlanılıb. Bu da bir daha onu göstərir ki, Ermənistan tərəfi həm hərbi, həm də mülki şəxslərin həyatı və təhlükəsizliyinə ciddi təhlükə yaratmaqda davam edir, beləliklə də bölgədə vəziyyətin gərginləşməsinə xidmət edir. Ermənistanın bu davranışı regionda sülh, təhlükəsizlik və əməkdaşlığın reallaşdırılmasına başlıca əngəl olmaqda davam edir.

Onu da qeyd edək ki, müharibədən sonra imzalanan bəyanata əsasən düşmənə Kəlbəcər, Laçın və Ağdam rayonlarından çıxmaq üçün vaxt veriləndə onlar bu vaxtdan da istifadə edib həmin ərazilərə minalar basdırıblar. İnsanların öz vəzifə borclarını yerinə yetirərkən mina qurbanına çevrilməsinin bütün məsuliyyəti Ermənistanın üzərinə düşür. Deməli, ermənilər hüquq qarşısında cavab verməli, yüzlərlə insanın həyatını itirməsinin səbəbkarı kimi cinayətə cəlb olunmalıdırlar. Həmçinin də beynəlxalq ictimaiyyət Ermənistanın beynəlxalq öhdəlikləri pozmasına, o cümlədən məqsədli şəkildə minalar yerləşdirmək siyasətinə göz yummamalıdır. Çünki onların bu hərəkəti tək azərbaycanlılara deyil, dünya ictimaiyyətinə, insan amilinə qarşı törədilən cinayətdir. Bu vəhşilik qarşısında dünyanın hələ də susması isə maraq doğurur. Belə nəticə hasil olur ki, bəzi dairələr regionda sülhün bərqərar olmamasında maraqlıdırlar.

## Düşmən bu şansı itirərsə...

2020-ci ilin 10 noyabrında Rusiya, Azərbaycan və Ermənistanın dövlət rəsmilərinin imzaladıqları bəyanatla bitən müharibədən sonra ermənilər həmin bəyanatda nəzərdə tutulan öhdəlikləri ardıcıl şəkildə yerinə yetirməyə başladılar. Bunun səbəblərini cənab İlham Əliyev çıxışlarının birində açıqlayır: "Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanan 9 bənddən ibarət bəyanatdan ümumiyyətlə razıyam. Çünki oradakı əsas məsələlər həll olunub. Bu bəyannaməni imzalayaraq Ermənistan öhdəliklər götürdü. Ermənistan bu öhdəlikləri məcburi şəkildə yerinə yetirdi. Bu öhdəliklərin yerinə yetirilməsi müharibədən dərhal sonra baş verdi...

Həmin vaxt erməni qüvvələrinin işğal olunmuş ərazilərdən çıxarılması orada açıq şəkildə bildirilmişdi. Müharibə bitdikdən sonra Ağdam, Kəlbəcər və Laçın bölgələri 20 gün ərzində bizə geri qaytarıldı. O zaman Ermənistan bu məsələyə çox məsuliyyətlə yanaşırdı. Niyə? Çünki qorxurdular. Ermənistan bilirdi ki, noyabrın 10-da bu bəyannaməni imzalamasaydı, onların vəziyyəti daha da pis olacaqdı. Yəni bizi dayandırmağa heç bir güc yox idi. Müharibə zamanı dəfələrlə Azərbaycan xalqına müraciət edərək dedim ki, Ermənistan bizə bir tarix verməlidir ki, nə zaman bizim torpaqlarımızdan çıxacaq. Biz onda dərhal müharibəni dayandırmağa hazır idik. Bu tarix bizə noyabrın 9-da verildi. Ermənistan kapitulyasiya aktını imzaladı və noyabrın 10-da müharibə dayandı. Beləliklə, həmin vacib məsələlərin həlli Ermənistanın qorxu içərisində olmasından qaynaqlanır".

Bundan sonra sülhməramlıların gəlişindən danışan dövlətimizin başçısı deyir: "Müharibə bitdikdən 15-20 gün sonra sülhməramlıların məsuliyyətində olan bölgədən, Laçın dəhlizindən azad edilmiş torpaqlara Ermənistandan təxribat qrupu göndərildi. 62 nəfərlik qrup. Bu, 10 Noyabr Bəyannaməsinə tamamilə ziddir. Azərbaycan ordusu onları zərərsizləşdirdi və həbs elədi. İndi onlara hərbi əsirlər deyirlər. Ancaq beynəlxalq konvensiyalara baxın. Hərbi əsirlər kimlərə deyilir? Onlar hərbi əsirlər deyillər. Müharibə bitdi, 10 Noyabr Bəyannaməsi imzalandı. Bundan sonra göndərilən hər hansı bir əsgərin təxribat qrupunun üzvü olduğu müəyyən edilməlidir. Bu məsələ həll olunmayıb. Bu çox vacib bir məsələdir və həll olunmasında israr edirik. Tam həlli tapılmalıdır. Hazırda bu məsələ qismən həll edilib...

Digər məsələ dəhlizlərin açılmasıdır. Noyabrın 9-dan 10-na keçən gecə imzalanan bəyannamədə Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə arasında əlaqə yaradılmalı olduğu açıq şəkildə göstərilir. Bu əlaqə yaradılıdımı? Yox. Bu əlaqəni qurmaq üçün çox zamana ehtiyac yoxdur. Buradakı yol məsafəsi ümumilikdə 40 kilometrdir. Biz müharibədən sonra bir ildə min kilometrdən çox yol tikmişik, həm torpaq yollar, həm də asfalt yollar. İndi orada 40 kilometrlik yolun açılması böyük bir problem deyil. Amma buna baxmayaraq, hətta Ermənistan da buna razı deyil. Danışıqlar nəticəsiz qalır. Ermənistan 10 Noyabr Bəyannaməsinin şərtlərini kobud şəkildə pozur. Hələlik səbr edirik. Amma səbrimizin də həddi var. İkinci Qarabağ müharibəsi səbrimiz tükənəndə nələrin baş verdiyini göstərdi. Buna görə də Ermənistan rəhbərliyinə 10 Noyabr Bəyannaməsinin bütün şərtlərini yerinə yetirməsi və məsuliyyətlə davranması üçün bir şans veririk".

Qonşu düşmən bəyannamənin bütün şərtlərini yerinə yetirməməkdə şansını itirir. Bu şansın itməsi isə ona heç də ucuz başa gəlməyəcək.

## Müharibə bitib, erməni xisləti bitmir...

Müharibə elə dəhşətli bir hadisədir ki, başlayır, bitir, lakin onun bəlaları bitmir ki, bitmir. Bu, tək bizdə deyil, dünya ölkələrinin bir-biriləri arasında apardıqları müharibələrdə də eynidir. Müharibə bitir, onun bəlaları isə illərlə bitmir. İnsanlar uzun illər bu bəlaların acısını yaşamaq məcburiyyətində qalırlar. Uzun illər itirdikləri övladlarının, gözü önündə bir ömürlük şikəst qalan balalarının acısını çəkirlər. Daha sonra dağılıb virane olanlar bərpa edilir. Həmin ərazilərə həyat gəlincə insan övladı bir neçə nəsil dəyişir. Ömürlər bitir, lakin müharibənin vurduğu zərərlər çox gec aradan qaldırılır.

Hər dəfə şəhidlərimizi xatırlayanda, qazilərimizi görəndə, onlarla söhbət edəndə, soydaşlarımızın öz doğma torpaqlarımızda minaların qurbanı olduğunu eşidəndə müharibənin nə qədər böyük fəlakətlər gətirdiyi, bitəndən sonra da bəlalarının bitmədiyi fikirləri düşüncələrimizdə yenilənir. Budur, artıq iki ilə yaxındır ki, ölkəmizdə müharibə başa çatıb. Bu gün azad olunmuş torpaqlarımızda qızğın bərpa işləri həyata keçirilir. Ona görə ki, 30 il köçkün, qaçqın, didərgin kimi yaşayan insanlar öz doğma ev-eşiklərinə qayıda bilsinlər. Azad torpaqlarımız işıqlandırılır. Elektrik enerjisi stansiyaları qurulur, yollar çəkilir, körpülər salınır, su anbarları tikilir. Ən maraqlısı isə budur ki, bu torpaqlarda üç hava limanı tikilir. Elə düşməni də narahat edən görülən bu işlərdir. Onlar xəritələri verməməklə bizim üçün çətinliklər yaratmaq, insanların köçməsini ləngitmək xülyasındadırlar. Lakin azad torpaqlarda müharibə bitəndən dərhal başlanan işlər elə o torpaqların sakinlərinin evlərinə tez qayıtmasına xidmət edir. Düşmən nə edir etsin, bu qayıdışı əngələ bilməyəcək.

Bu terrorçu dövlətin xislətinə biz qonşu olaraq illərdir ki, bələdik. Yalançı, ikiüzlü, verdiyi sözün arxasında dayana bilməyən bu varlıqlar zamanın bütün dönəmlərində bu xalqı narahat etməyə, isti aşına su çiləməyə çalışıblar. Lakin biz də onları zaman-zaman tanımışıq. Hansı xislətdə olduqlarına bələd olmuşuq. Bütün bunlara görə də onlarla özlərinə layiq şəkildə davranmaqdan başqa çarə yoxdur.

Bu gün torpaqlarımızın azad olunması ilə region dövlətlərin hər biri üçün yeni qapılar açılır. Düşmən hər vəchlə o qapıları bağlamaq, birgə əməkdaşlığa, dostluq münasibətlərinə kölgə salmaq istəyir. Hansı ki, bu çirkin hərəkətləri ilə özü də onun üçün açılan geniş imkanlardan kənarda qalır. Lakin onun istəklərindən asılı olmayaraq Azərbaycan istədiyinə nail olur və olacaq. Çünki bu torpaqlar bizim əzəli torpaqlarımızdır, onlardan necə istifadə etmək isə öz məsələhətimizdir. Gizlədib ortaya çıxarmadıqları xəritələrsiz də bu torpaqlar minadan təmizlənəcək, Qarabağda yeni həyat başlayacaq. Lakin dünyanın onların bu xislətinə qarşı susması hələ də maraq doğuran məsələlərdəndir.

***Mətanət MƏMMƏDOVA***



# Azərbaycan futboluna cəmiyyətin baxışı necədir?

**Futbol dünyanın 200-dən çox ölkəsində 250 milyon futbolçu tərəfindən oynanılır, bu da onu dünyanın ən populyar idman növü edir. Oyunun məqsədi rəqibin qapısından mümkün qədər çox qol keçirtməkdir.**

Son dövrlər Azərbaycan futbolunda da ciddi şəkildə irəliləyişlər nəzərə çarpmaqdadır. Buna misal olaraq son zamanlarda "Qarabağ" və "Neftçi" komandalarının oyunlarda qazandığı qələbələri göstərmək olar. Bəs hazırda futbolumuzda hansı boşluqlar var? Nəyə görə digər komandalar aktiv şəkildə iştirak etmir? Mövzu ilə əlaqədar olaraq şəhər sakinlərinin fikirlərini öyrənmək məqsədi ilə SİA olaraq sorğu keçirdik.

**Şəhər sakini Emil Mikayılov:** "Milli yığma komandamız çox zəifdir. Düşünürəm ki, komandaların zəif olmasının əsas səbəbi idmançıların peşəkar olmamasıdır. Mən özüm mütəmadi olaraq "Qarabağ" komandasının oyunlarını izləyirəm. İnanıram ki, gə-



ləcəkdə "Qarabağ" komandası böyük uğurlara imza atacaq. Lakin ümumilikdə futboldakı vəziyyət çox acınacaqlıdır".

**Şəhər sakini Salman Əliyev:** "Mən cavanlığımda futbolla çox yaxından məşğul olmuşam. Lakin zaman keçdikcə müəyyən səbəblərdən futboldan uzaqlaşmışam. Hazırda futbo-



la baxmıram və azarkeşlik etdiyim komanda yoxdur. Lakin hər şey göz qabağındadır. Azərbaycan futbolunda vəziyyət çox aşağı səviyyədədir. Bunun bir sıra səbəbləri var. Bilirəm ki, bu səbəbləri də hamımız yaxşı bilirik".

**Şəhər sakini Şamil Fərzəliyev:** "2008-ci ildən etibarən "Qarabağ" komandasının oyunlarını izləyirəm. Düşünürəm ki, yeni transferlər olunsa və maliyyə baxımından vəziyyət yaxşılaşdırılsa Azərbaycan futbolu zaman keçdikcə yaxşı mənada irəliləyə bilər. Gördüyünüz kimi "Qarabağ" qələbə qazandıqca onun izləyiciləri artır. La-



kin başqa komandaların oyununda 30-40 nəfər azarkeş olur. Bu səbəbdən azərkeşin çox olması da həmin komandaya böyük təsir edir".

**Şəhər sakini Fərid Əmiraslnov:** "Fikrimcə, bugünkü gün "Qarabağ" komandası çox yaxşı bir şəkildə Azərbaycan futbolunu tanıdır. Lakin yalnız "Qarabağ" və "Neftçi" komandalarının yaxşı nəticə əldə etməsi ilə Azərbaycan futbolu bitmir. Çünki Azərbaycan Premyer Liqasında 8 komanda var. İki



komandadan başqa qalan 6 klub da öz üzərində işləsə çox yaxşı olar. Bugünkü gün komandaların zəif olmasında başlıca səbəb sponsorların və maliyyə dəstəyinin zəif olmasıdır. Azərbaycanda futbolu gücləndirmək üçün çox yaxşı transferlər edilməlidir".

**Şəhər sakini Nurlan Quliyev:** "Mən demək olar ki, futbolu izləmirəm. Çünki marağım yoxdur. Lakin izləməsəm belə bugünkü gün futbolu-



muzun aşağı səviyyədə olduğunu görürəm. Buna əsas səbəbin futbolçuların öz işlərinə məsuliyyətsiz yanaşmalarından irəli gəldiyini düşünürəm. "Qarabağ" və "Neftçi" komandalarının oyununu çox nadir hallarda izləmişəm. Deyərdim ki, futbolda olan üz qaralığımızı heç olmasa onlar təmizləyir".

**Şəhər sakini Oqtay Abbasov:** "Mən Sovet dövründən "Neftçi" futbol komandasının azarkeşiyəm. Hətta əvvəlki dövrlərdə "Neftçi"nin bir sıra məşhur idmançıları ilə yaxından mü-



nasibətim olub. Amma ümumi vəziyyət futbolda yaxşı deyil. Mən çox istərdim ki, bu gün bizim futbol komandalarımızda yerli idmançılarımız yer alsınlar. Lakin çox təəssüflər olsun ki, ucuz qiymətə xarici ölkələrin futbolçularını transfer edirlər və bu da heç bir nəticə vermir. Mən futbolu izləyərkən komandam uduzanda çox böyük əsəb hissi keçirirəm. Hətta bəzən həyat yoldaşım gəlib deyir ki, sənin qışqırmağının heç bir mənası yoxdur onlar onsuz da sənin səsini eşitmirlər. Amma bu mənim özümdən asılı deyil".

**Şəhər sakini Ramin Əliyev:** "Mən ara-sıra hallarda futbola baxıram. Futbola arabir baxmağımın əsas səbəbi oyunlardan heç bir həzz almamağımdır. Ancaq nə qədər də olmasa bir gün futbolumuzun inkişaf edəcəyini düşünürəm. Çünki bu belə gedə bilməz. Düşünürəm ki, ölkə-



mizdə çox yaxşı potensiala sahib olan idmançılar var. Lakin müəyyən səbəblərdən həmin insanları qabağa çəkmirlər".

***Banuçiçək Hüseynli***

## "Azərbaycan Ermənistana vaxt verib"

### *HƏRBİ EKSPERT AÇIQLADI*

"Sərhəd təhlükəsizliyini təmin etmək üçün hər cür imkandan istifadə edəcəyik". Bunu SİA-ya açıqlamasında hərbi ekspert Cəlil Xəlilov deyib.

Cəlil Xəlilov bildirib ki, Azərbaycan suveren dövlətdir və Birləşmiş Millətlər Təşkilatı tərəfindən əraziləri müəyyən olunub: " Azərbaycan öz əraziləri çərçivəsində torpaq təhlükəsizliyini təmin etmək üçün bütün imkanlardan istifadə edəcək. Azərbaycanın başqa dövlətlərin ərazisinə iddiası yoxdur. Eyni zamanda sərhəd ölkələrlə normal qonşuluq əlaqəsi saxlayır. Azərbaycan öz vətəndaşlarının və ərazisinin təhlükəsizliyini təmin edir. Bizim ərazimizdə terror qrupları və qeyri-qanuni hərbi birləşmələrə qarşı mübarizə aparır. Azərbaycan müharibə istəmir. Azərbaycan normal qonşuluq əlaqəsi yaratmağa çalışır. Eyni zamanda Azər-



baycan beynəlxalq arenada həmrəyliyini hər zaman göstərib. Üçtərəfli bəyanat imzalanıb və Ermənistan tərəfinə xeyli müddət vaxt verilib. Terror birləşmələri Azərbaycan ərazisindən çıxarılmalıdır. Azərbaycan hakimiyyətinin idarətmə sistemindən kənarda heç bir hərbi qruplaşma Azərbaycanda yerləşə bilməz. Azərbaycan öz ərazi daxilində qeyri-qanuni məskunlaşan hərbi birləşmələrə qarşı mübarizə aparmalıdır. Azərbaycan tərəfi dəfələrlə bu barədə Ermənistana xəbərdarlıq edib. Ermənistan tərəfi öz ambisiyasından və separatçı ideyalarından əl çəkmək istəmir".

***Qönçə Quliyeva***

## "Ermənistan hərbi birləşmələrini Qarabağdan çıxarmalıdır"

"Qarabağda Ermənistan ordusunun, erməni hərbi birləşmələrinin silahlarının mövcudluğu 10 noyabr 2020-ci il bəyanatının 4-cü bəndinə ziddir". Bu fikirləri SİA-ya açıqlamasında hərbi ekspert Ramil Məmmədli bildirib.

Onun sözlərinə görə, bu qısaca bəyanatın icra olunmamasıdır: "Bütün bu hadisələrdə yəni Azərbaycan ordusunun anti-terror əməliyyatını həyata keçirməsində əsas günahkar tərəf Ermənistandır və beynəlxalq təşkilatlardır. Digər tərəfdən bu məsələdə problemlərin həllinə yanaşma istiqamətində böyük yanlışlıq var. Müharibədən sonra Ermənistan-Azərbaycan-Rusiya arasında imzalanan üçtərəfli bəyanat Ermənistanın təslim olması demək idi. Lakin çox təəssüf ki, sonrakı mərhələlərdə vəziyyət dəyişdi. Ermənistan maksimum şəkildə mövcud vəziyyətdən yararlanaraq əvvəlki





sistemi həyata keçirmək istəyir. Digər tərəfdən bəyanatda qeyd olunub ki, hər kəs öz mövqeyində qalacaq. Amma ermənilər qeyd olunan ərazilərdə hərəkətlilik nümayiş etdirir, təxribatlar həyata keçirir. Bunun özü hərbi əməliyyatların başlamasına rəvacdır.

Qeyd edim ki, Ermənistan bundan sonra proseslərə səthi yanaşmalıdır. Reallığı nəzərə alaraq müharibənin baş verməməsi üçün öz hərbi birləşmələrini Azərbaycan ərazisindən, Qarabağdan çıxarmalıdır. Əks təqdirdə vəziyyət getdikcə çətinləşəcək. Daha irimiqyaslı hərbi əməliyyatların şahidi ola bilərik. Müharibənin qarşısını almaq üçün Ermənistan münaqişədən yayınmalıdır".

***Abutel İlhamqızı***

# Geosiyasi maraqların kəsişməsi münasibətlərə necə təsir edəcək?

SİA Heydər Əliyev adına Hərbi İnstitutun professoru, politoloq Ramid Hüseynovun müsahibəsini təqdim edir.

***- Dünyada gedən prosesləri necə dəyərləndirirsiniz? Sizcə, yeni reallıqlar Azərbaycanın gücünü hansı yöndə artırıb?***

- Dünya iqtisadi böhranı, "Covid-19" pandemiyası, Rusiya-Ukrayna müharibəsi yeni dünya düzəninin formalaşmasını, qlobal geosiyasi dinamikanın sürətlə dəyişməsini labüd edir. Artıq geosiyasi maraqların kəsişməsi, münasibətlərin gərginləşməsi, ziddiyyətlərin yeni səviyyəyə yüksəlməsini şərtləndirir və dövlətlərin, əsasən, enerji və ərzaq təhlükəsizliyi məsələsinin həllini gündəmə gətirir. Hazırkı mərhələdə beynəlxalq güclərin artan maraqları dövlətlərarası hərbi qarşıdurmaları dərinləşdirməklə daha qlobal müharibələrin meydana gəlməsini qaçılmaz edir.

Geosiyasi proseslərin gərginliyi fonunda, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində müəyyən mənada Azərbaycanın alternativ kimi çıxış etməsi onun gücünün artmasına şərait yaratmışdır. Hazırkı fürsətdən istifadə edərək dövlətin süverenliyinin və ərazi bütövlüyünün təmin edilməsinə və iqtisadiyyatın daha dinamik inkişafına nail olmaq tələb olunur.

***- Qərb və Rusiya qarşı-qarşıyadır. Rusiya Avropanı qazla təhdid etdiyi üçün Avropa bizimlə enerji əlaqələrini gücləndirir. Eyni zamanda, ABŞ da Azərbaycanla dostluq münasibətlərini saxlamaqda və daha da yaxın olmaqda maraqlıdır. Dünya ölkələrinin strategiyasının dəyişməsində və Azərbaycanla əlaqələrin möhkəmləndirilməsində maraq nədir?***



- Avropanın Azərbaycanın enerji resurslarına maraqları hər zaman olmuşdur. Son zamanlar Rusiya ilə hərbi gərginliyin artması fonunda enerji təhlükəsizliyinin təmin edilməsində bu resurslardan alternativ olaraq istifadə edilməsi daha çox gündəmə gəlmişdir. Bu baxımdan, Avropanın və ABŞ-ın Azərbaycana olan münasibətlərində bir qədər də yaxınlaşma və istiləşmə hiss olunur. Rusiyanın qərbi qazla təhdid etməsi vəziyyətində çıxış yolu kimi Azərbaycan qazından istifadə ən etibarlı çıxış yolu hesab edilir. Eyni zamanda, Azərbaycan qərbə inteqrasiya siyasətində bu imkanlardan doğru istifadə etməsi hər iki tərəfin maraqlarına xidmət edər. Bu, həm də regionun daha demokratik inkişafına və regional geosiyasi güclərin təsir imkanlarının zəifləməsinə şərait yaradar.

***- Rusiya-Ukrayna müharibəsi davam edir və nə zaman bitəcəyini proqnozlaşdırmaq da çətindir? Bu müharibə Avropaya sıçraya bilərmi?***

- Rusiyanın Ukraynaya qarşı işğalçılıq müharibəsinin qısamüddətli olmayacağı əvvəldən də bəlli idi. Halbuki Rusiya tərəfi özünü və dünyanı bunun belə olmayacağına inandırmağa çalışırdı. Çünki verilən proqnozlarda bir daha onu göstədi ki, müharibə təkcə iki dövlət arasında deyil, dolayısı ilə qərblə Rusiya arasında həyata keçiriləcəyindən üzünmüddətli olacaq. Nəticədə, Rusiyanın işğalçılıq siyasəti və ekspansionist maraqları müharibənin qarşısıalınmaz vəziyyət almasına gətirib çıxartdı.

Düzdür, hazırkı vəziyyətdə Rusiyanın hərbi gücünün müəyyən bir hissəsini itirməsinə əmin olmasına rəğmən Qərb müharibənin qlobal miqyas alacağından ehtiyatlanaraq birbaşa olaraq onunla müharibəyə girməkdən yayınır. Daha çox iqtisadi müharibə üsullarından istifadə etməklə və Ukraynaya hərbi dəstək verməklə Rusiyanın məğlubiyyətinə nail olmağa çalışır.

Düşünürəm ki, tərəflərin malik olduqları resurslardan istifadə etməklə bir-birinin gücünü zəiflətmək və mövqelərini möhkəmləndirmək istəkləri proseslərin hələ davam edəcəyi qənaətinə gəlməyə əsas verir. Amma hər bir halda tərəflərin ehtiyatlı davranışları nüvə silahından istifadədən və dünya müharibəsindən çəkindiklərini də açıq-aşkar göstərir. Yəni müharibənin daha geniş əraziyə yayılmasını proqnozlaşdırmaq bir qədər real görünmür.

***- Erməni təxribatlarının qarşısı antiterror əməliyyatları ilə alınır. "Qisas" əməliyyatlarından sonra Ermənistanı və Azərbaycanı nə gözləyir? Bu gedişatı necə şərh edərdiniz?***

- İkinci Qarabağ müharibəsinin sona çatmasına baxmayaraq, Ermənistan tərəfinin imzalanmış bəyənatın müddəalarına riayət etməməsi, Azərbaycanın suverenliyini tanımaması, Xankəndində və ətraf ərazilərdə hələ də erməni separatçılarının qalması dövlətimizin antiterror əməliyyalarını həyata keçirməsini qaçılmaz edir. Azərbaycan öz suveren hüquqlarından istifadə etməklə təhlükəsizliyinə təhdid törədən separatçılara və terrorçulara qarşı istənilən addımı atmaqda sərbəstdir. Baxmayaraq ki, bu addımları daha əvvəl də atmaq olardı. Çünki Ermənistanın separatçı, işğalçı siyasətindən əl çəkəcəyini gözləmək doğru olmazdı. Əsasən də, onu himayə edənlərdə iki dövlət arasında münasibətlərin normal vəziyyətə gəlməsində maraqlı deyillər. Hesab edirəm, Azərbaycan hərbi gücündən düzgün istifadə edərək lazımi addımları atmaqla, suverenliyinin tam bərpasına nail olmaqda haqlıdır. Amma prosesin müharibə həddinə gəlməsinə, regionda yenidən hərbi qarşıdurmaların baş verməsinə imkan verməmək lazımdır. Əks təqdirdə regionun geosiyasi güclərin hərbi poleqonuna çevrilməsi təhlükəsi yaranmış olar.

***- Dünya taxıla görə Türkiyədən, qaza görə Azərbaycandan asılıdır. Azərbaycan və Türkiyə bölgədə və dünyada öz sözlərini rahat şəkildə deyir. Hər iki qardaş ölkə bu dönəmdən sonra dünya ölkələrinə münasibətdə necə davranacaq?***

- Hər bir dövlət üçün öncə dövlət və vətəndaş maraqlarının təmini dayanır. Düzdür, biz qlobal dünyanın tərkib hissəsi olduğumuzdan bəşəri maraqları da unutmamalıyıq. Amma dünya düzəninin dəyişən təbiəti, yeni reallıqları dövlətləri fərqli davranmağa, daha çox öz maraqlarına uyğun hərəkət etməyə sövq edir. Nəticədə, nəzəri məsələlər reallıqla ziddiyyət təşkil edir. Heç şübhəsiz ki, dövlətlər daha çox reallıqla razılaşaraq ona uyğun davranmaq məcburiyyətində qalırlar. Bu baxımdan düşünürəm ki, istər Türkiyə, istərsə Azərbaycan malik olduqları resurslardan daha səmərəli və daha düşünülmüş şəkildə istifadə etməklə özlərinin iqtisadi, siyasi, hərbi güclərinin möhkəmləndirmələrinə çalışmalıdırlar. Əks təqdirdə, beynəlxalq münasibətlərin aktoru kimi mövqelərini kimsəyə güzəştə getməli olacaqlar.

***Qönçə Quliyeva***

# "Ermənilər bizim tariximizi silmək istəyir"

***Müxtəlif vaxtlarda etnik mənsubiyyətinə görə Ermənistan ərazisindən azərbaycanlıların kütləvi şəkildə deportasiyası həyata keçirilmişdir. Azərbaycan xalqı Ermənistan ərazisində zəngin tarixi-mədəni irs yaratmışdır. Bunların beynəlxalq şəkildə dünyada tanınması üçün hansı tədbirlər həyata keçirilməlidir? Həmin insanların öz ata-baba yurdlarına qayıtmaq hüququnun təmin edilməsi və birgəyaşayışa nail olunması üçün hansı işlər görülməlidir? Bu barədə SİA millət vəkillərinin fikirləri öyrənib.***

Millət vəkili Naqif Həmzəyev qeyd edib ki, 2 əsr müddət ərzində azərbaycanlıların hazırkı Ermənistan ərazisindən deportasiya edilməsi davam etdirilmiş və bütün bu ərazilərdə erməniləşdirmə siyasəti həyata keçirilmişdir: "Heç də sirr deyil ki, Ermənistan bir layihədir və burada əsas məqsəd türk torpaqlarında buffer zona yaradaraq, Osmanlı Türkiyəsi ilə əlaqələri kəsmək, eyni zamanda, Azərbaycanı tamamilə işğal etmək idi. Tarixin müxtəlif dövrlərində də azərbaycanlılara qarşı dəfələrlə deportasiya siyasəti həyata keçirilmişdir. Hazırkı Ermənistan torpaqlarından azərbaycanlıların çıxarılmasına ermənilər nail olmuşdur. Lakin heç kəsə sirr deyil ki, bu ərazilər Azərbaycan türklərinə məxsus olubdur, neçə minilliklər boyu burada məhz Azərbaycan türkləri yaşayıbdır. Ermənilər isə 19-cu əsrdə bu ərazilərə köçürülüb. Biz həm 1905-1918, 1948-1953-cü illərdə sonuncu olaraq 1988 və 1991-ci illərdə Ermənistan hərbi ərazilərdən Azərbaycan əsilli vətəndaşların köçürülməsi baş tutdu və tamamilə bu ərazilər azərbaycanlaşdırıldı. Lakin bilirsiz ki, bununla yanaşı Qarabağ, Şərqi Zəngəzur torpaqları da Ermənistan tərəfindən işğal edildi. Bu baxımdan da, biz Qarabağ probleminin həllinə kökləndik. Həmçinin, Ermənistandan gəlmiş məcburi





köçkünlərin hüquqlarının müdafiə edilməsi və onların öz yurdlarına qayıtması üçün fəaliyyətimizi müəyyən dərəcədə ləngitmiş olduq. Hədəfimiz məhz Qarabağ, Şərqi Zəngəzurdan gəlmiş köçkünlərin öz dədə-baba yurdlarına qayıtmasına nail olmaq idi. Şükürlər olsun ki, 2020-ci ildə Ali Baş Komandan cənab Prezident İlham Əliyevin başçılığı altında rəşadətli ordumuz Qarabağı və Şərqi Zəngəzuru işğaldan azad etdi və biz bu il keçmiş məcburi köçkünlərimizin torpaqlarına qayıtmasının şahidi olduq. Hazırda da bu proses davam etdirilir. Bizim əsas məqsədimiz tarixi torpaqlarından didərgin salınmış Qərbi azərbaycanlıların həmin torpaqlarda yaşamalarının bərpa edilməsidir. Necə ki, Qarabağ müharibəsi zamanı bir dəmir olduq, bu gün də əsas hədəfimiz hazırkı Ermənistan torpaqlarına həmin yerlərin öz sakinləri olan Qərbi azərbaycanlıların qaytarılmasına nail olmalıyıq".

Millət vəkili Tahir Kərimli: "Ermənistan adlanan indiki ərazidə azərbaycanlıların kütləvi şəkildə deportasiyası bir neçə dəfə baş verib. Nəzərə alaq ki, Ermənistan heç vaxt çoxluq şəklində olmayıb. Rus imperiyası müxtəlif dövlətlərin İran və Osmanlı imperiyasının ərazisindən erməniləri gətirərək Azərbaycan ərazisində yerləşdirmişdir. Bununla da ruslar süni Ermənistan dövlətini elan etmişdir. Lakin tarixi heç vaxt aradan qaldırmaq olmaz. Tarixdə olan faktlara əsasən, bizim həmin ərazilərdə tarixi abidələr və məscidlərimiz olub. Təbii ki, ermənilər bizim izimizi itirmək istəsə də, buna nail



ola bilməyib. Dünya bu gün bunları daha artıq dərəcədə bilir. Mən konfransda da qeyd etdim ki, Albaniya dövləti haqqında biz qanun qəbul etməli və hüquqi varisliyimizi təmin etməliyik. Bəzi beynəlxalq təşkilatlar bildirir ki, sizin bu haqda konstitusion qanunuz yoxdur və bizdən bir çox tələb edirsiz. Məhz bu səbəbdən də milli qanunlar bir sıra məsələlərin həllində aparıcı rol oynayır".

***Banuçiçək Hüseynli***

Sərhəddə və Qarabağ ərazisində gərginliyin olduğu barədə erməni mediasının və separatçı-terrorçuların öz iddialarını tirajlamağa başlaması heç də təsadüfi və düşünülməmiş şəkildə deyil. Azərbaycan ordusunun öz suveren ərazisində hansısa mövqe dəyişikliyi etməsi barədə fakt yoxdur, amma ermənilər yenə də hay-küy salıb hansısa mənfur niyyətlərini gerçəkləşdirməyi planlayırlar. Şübhəsiz ki, separatçıların erməni əhalisini guya təşvişə düşməməyə çağırması da əbəs yerə deyil. Yenə də hansısa çirkin niyyətlərə əl atmaqla rəsmi Bakının razılaşmaların icrası tələbindən vaz keçməsinə çalışıldıqları göz önündədir, amma bütün bunların əsassız, mənasız olduğu və nəticəsiz qalacağı heç kimdə şübhə doğurmur.

ABŞ dövlət katibinin köməkçisi Karen Donfridin Bakı və İrəvana zəng etməsindən bəlli olur ki, ermənilərin dırnaqarası qondarma "gərginlik" barədə səs-küy salmaları, haray-həşirləri məhz hansısa tərəfin məsələlərə müdaxilə etməsi üçün imiş. Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın da elə ermənilər tərəfindən uydurulan qondarma gərginlikdən narahat olmasını ifadə etməsi deyilənləri təsdiq edir və tam şəkildə aydın olur ki, ermənilər, eləcə də separatçı-terrorçular üçüncü tərəfin müdaxilə etməsinə çalışırlar. Bəlkə də onlar sonuncu dəfə Xankəndinin qazı kəsiləndə belə bir niyyətlərinə, yəni kənar müdaxilələrin olması barədə arzularına çatacaqları iddialarından şövqə gələrək yenə də belə bir istəyə düşüblər, amma bərk yanıldıqlarının fərqində deyillər. Fərqində deyillər ki, Azərbaycan ərazisində, bizim torpaqlarımızda etdiklərinə, törətdikləri təxribatlara görə özləri cavab verməli olacaqlar və rəsmi Bakı heç bir qanuni tələbindən geri çəkilən deyil.



# Ermənilərin

## SÜNİ GƏRGİNLİK PLANININ PƏRDƏARXASI MƏQAMLARI

Sözsüz ki, 44 günlük müharibədə üzləşdikləri rüsvayçı məğlubiyyətləri, kapitulyasiya sənədinə imza atmaları fonunda rəsmi Bakının öz tələblərindən vaz keçəcəyinə ermənilərin özləri də inana bilməzlər. Bunun əksini söyləmək belə gülünc səslənir, çünki qalib tərəf olan Azərbaycan öz haqq və hüquqlarını tələb edir, imzalanan bəyanatdan irəli gələn tələbləri qarşıya qoyur. Burada həm qeyri-adi heç nə görünmür, həm də Azərbaycan tərəfinin hansısa məcburiyyət qarşısında qalacağı mümkün deyil, əksinə, qalib ölkə öz tələblərini irəli sürmək imkanına sahibdir. Bir sözlə, ermənilər, separatçı-terrorçular nəyə isə ümid edə, hansısa xülyada ola da bilməzlər. Elə isə, onların bu hərəkətlərinin mənası nədir və nəyə nail olmaq istəyirlər? Həqiqətən maraqlı məqam, maraqlı sualdır və sözün həqiqi mənasında düşündürücüdür.



Bir halda ki, ermənilər, separatçı-terrorçular rəsmi Bakının öz tələblərindən vaz keçəcəyinə özləri də inanmırlarsa, deməli, burada başqa məqsədlərin olduğu ortaya çıxır. Məqsəd başqa nə ola bilər, deyə düşündükdə ilk öncə ağıla gələn yeganə varian ortaya çıxır və burada tələblərin icrasını uzatmaqdan başqa variantın olmadığı bəlli olur. Həqiqətən də, bu məqamda Azərbaycan tərəfinin tələblərinin yerinə yetirilməməsi mümkünsüz sayılırsa, deməli, yeganə istəklərinin həmin tələblərin icrasının uzadılmasından başqa niyyətin ola bilməməsi öz təsdiqini tapır. Hər bir halda tələblər icra olunmalıdır və bu tələblərin icrasını uzatmaqla nəyə isə nail olmaq istəyənlər öz acizliklərini ortaya qoymuş olurlar.

Diqqət çəkən ən maraqlı məqam isə odur ki, üçtərəfli razılaşmaların, daha dəqiq desək, 10 noyabr, 11 yanvar və 26 noyabr razılamalarının icrasının praktiki tərəflərini Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti cənab İlham Əliyevlə deyil, Ermənistanın baş naziri Paşinyanla müzakirə etdi. Bu isə ondan xəbər verir ki, rəsmi Moskva Azərbaycan tərəfinin gündəliyindən xəbərdardır və öz tələblərindən geri çəkilməyəcəyini də bilir, hətta buna əmindir də. Bu fakt həm də onu deməyə əsas verir ki, mümkün ola biləcək gərginlikdə sorumlu tərəf Ermənistan hesab olunur. Ən azından Rusiya tərəfinin belə bir qənaətdə olduğu hadisələrin gedişatından bəlli olur və öz təsdiqini tapır. Təkcə Rüsiyanın deyil, bütün dünyanın belə artıq ermənilərin, separatçı-terrorçuların niyyətindən xəbərdar olduğu halda, nəyə isə ümid etmələri ağılsızlıq, axmaqlıqdır.

Doğrudur, separatçılar daha əlverişsiz hesab etdikləri yeni marşrutdan istifadə etmək niyyətində deyillər. Onlar heç Laçın şəhəri, Zabux və Sus kəndlərində qalan ermənilərin çıxarılmasını da istəmirlər. İstəmədikləri üçün əllərindən gələni edəcəklərinə də şübhə ola bilməz, amma ata biləcəkləri istənilən addım heç nəyi dəyişməyəcəyi də təkzibedilməz reallıqdır. Elə isə, belə süni gərginliklər yaratmaqda başqa niyyətləri nə ola bilər? Hər halda süni gərginlik yaradılması səbəbsiz ola bilməz və bu məsələnin kökündə digər məqamlar da gizlənir.

Gizli deyil ki, Ermənistan müxalifəti bu ölkənin mövcud hakimiyyətini hədəfə alıb və 44 günlük müharibədə üzləşdikləri məğlubiyyətlərində Paşinyan hakimiyyətini günahlandırır. Eyni zamanda, müharibədə rüsvayçı məğlubiyyətlərinin ardınca sənədlərin imzalanmasında, diplomatik danışıqlarda Ermənistan hakimiyyətinin uduzduğunu erməni cəmiyyətinə çatdırmaq üçün bu ölkənin müxalifəti əldən-ayaqdan gedir. Bütün bunlar erməni cəmiyyətində hakimiyyətə qarşı mənfi rəyin formalaşdırılması məqsədi daşıyır və Ermənistanın hazırkı hakimiyyəti buna görə çox narahatdır. İndi də marşrutun dəyişdirilməsi, Laçının, eləcə də hazırkı dəhliz üzərindəki ərazilərin təhvil verilməsinin yaradacağı dalğadan ehtiyatlananlar daxili ictimai rəyin onların əleyhinə dəyişməsinin qarşını almağa çalışdıqları ortaya çıxır. Heç şübhəsiz ki, süni gərginlik yaratmaqla, əvvəla diqqəti yayındırmaq istəyirlər. Digər tərəfdən də, bunun hər zaman olduğu kimi, daxili auditoriyaya hesablanmış addım olduğu da görünür.

Məsəl burasındadır ki, ermənilərin nə istəməsi, hansı məqsəd güdməsi, yaxud süni gərginlik yaratmaq niyyətlərinin hansısa bir dəyişikliyə səbəb olacağı inandırıcı deyil. Hər zaman olduğu kimi, erməni məkrinin yenə də ortaya çıxacağı əvvəlcədən bəlli idi və indi hansısa oyunlara əl atmaları təəccüblü görünmür və Azərbaycan tərəfi bütün bunlara hazırlıqlıdır. Çoxdandır bizim üçün tanış olan erməni xislətinin fonunda hansısa məkrli niyyətlərin olmayacağına kimsə zəmanət verə bilməz. Əlxüsus, son günlər ermənilərin, separatçı-terrorçuların süni gərginlik yaratmaq istəyi, niyyəti onların məkrli niyyətlərindən xəbər verir və bunun pərdəarxası məqamlarında hələ daha nələrin olması ən yaxın zamanda üzə çıxacaq.

***İnam Hacıyev***

# Erməni terroru dayandırılmasa bəşəriyyət dinclik tapmayacaq

**Son iki yüz ildə Azərbaycan öz müstəqlliyini qoruyub saxlamaq və inkişaf etdirmək üçün bütün mümkün mübarizə üsullarından, fəaliyyət növlərindən istifadə edib. Bu mübarizə nəticəsində yüz minlərlə azərbaycanlı həyatını itirib, sağlamlığından məhrum olub. Təkcə erməni terrorçularının terror əməlləri nəticəsində iki əsr ərzində 2 milyon azərbaycanlı qətlə yetirilib, yüzlərlə şəhər və kənd dağıdılıb. Erməni vandalları 1988-ci ildən sonra da Moskvadakı əlaltılarına arxalanaraq Azərbaycan Respublikasına qarşı torpaq iddiaları ilə çıxış etdi və hərbi-siyasi dəstək hesabına yaşayış məskənlərimizi işğal edib, insanlarımızı ev-eşiyindən didərgin saldılar. Yalnız onların qəsbkar siyasətlərinə 44 günlük Vətən müharibəsi ilə son qoyuldu. Düşmən layiq olduğu cəzanı almaqla, törətdiyi faciələri on qat ödəməli oldu.**

Artıq Qarabağımız azad nəfəs almaqdadır. Üçrəngli bayrağımız Şuşada, Kəlbəcərdə, Zəngilanda, Qubadlıda, Ağdamda, Füzulidə və digər yerlərdə dalğalanmaqdadır. Artıq imperiya siyasəti aparan və hər zaman ermənilərə öz siyasi-hərbi dəstəyini göstərən Rusiya da Ermənistanı üzləşdiyi fəlakətlərdə, Aəzrbaycan ordusunun dəmir yumruq əməliyyatlarından xilas edə bilmir. Çünki dövr dəyişib, bu gün artıq Azərbaycan yenilməz gücə, müzəffər orduya, qətiyyətli Sərkərdəsinə malikdir. Demək olar ki, yetişən reallıqlara əsaslanmaqla Türkmənçay və Gülüstan sülh müqavilələri də ləğv edilməli və Azərbaycanın bütövlüyü bərpa olunmalıdır. Məlum tarixi faktlara istinadən demək olar ki, ötən əsrin əvvəllərində Rusiya imperiyası Cənubi Qafqazda qüvvətlənmək və özünün gələcək işğalçılıq planlarını reallaşdırmaqdan ötəri imzalanmış Türkmənçay və Ədirnə müqavilələsinin şərtlərinə görə erməniləri tez bir vaxtda İran və Osmalı imperiyası ərazisindən bütöv şəkildə Şimali Azərbaycan ərazisinə köçürməyə başladı. Rusiya və İran arasında bağlanmış Türkmənçay müqaviləsinin 15-ci maddəsinə görə Rus çarizminin təkidi ilə hazırkı fars-molla rejiminin ərazisində yaşayan ermənilərin tam şəkildə Azərbaycan ərzisinə köçürülməsi rəsmiləşdirildi.



### Ermənilərin köçürülməsinin toplum olmasını təsdiqləyən sübutlar

1829-cu il sentyabrın 2-də Osmanlı ilə Rusiya arasında imzalanmış Ədirnə sülhünün 13-cü maddəsinə görə Osmanlı torpaqlarında yaşayan ermənilərin hamılıqla Azərbaycan torpaqlarına köçürülməsi rəsmiləşdirildi. Ermənilərin bu ərazinin yerli əhalisi deyil, gəlmə olduqlarını başqa xristian qaynaqları ilə yanaşı erməni mənbələri də sübut edir. Türkmənçay müqaviləsinin təsdiq edilməsinin (1828-ci il 20 mart) ertəsi günü Rus çarı Nikolay "Erməni vilayəti" yaradılması barədə fərman verdi. 1827-ci ilin mayında Rus generalı Paskeviç Xüsusi tələbnamə əsasında ermənilər içində nüfuza malik olan polkovnik Lazaryevi (Qararos Lazaryan) öz sərəncamına alınması ilə köçürülmənin hazırlıq işlərinə başlandı. O, 1827-ci il oktyabrın 19-da Təbrizə komendant təyin edildi. Rus ordularının Təbrizə hücumu zamanı (13 oktyabr) Lazarevin çağırışından riqqətə gələn ermənilər yenə də xəyanət edərək Təbrizin darvazalarını rus ordularının üzünə açdılar. Köçürülən kasıb erməni ailələrinə kömək etmək üçün Rus dövlətinin xəzinəsindən 25 min rubl gümüş pul ayrılmışdı. 1828-ci il 26 may tarixli Gürcüstandakı baş qərargah rəisinə təqdim edilən raportda bildirilirdi: "Rusiyaya məxsus olan vilayətlərə xristianların köçürülməsi müvəffəqiyyətlə aparılır. Artıq Qarabağda 279, İrəvan vilayətində 948 ailə məskunlaşdırıldı. Polkovnik Lazarevin vədinə görə köçənlərin sayı 5 min ailəyə çatdırılmışdı. İ.Şopenin yazdığına görə, İrandan köçürülən ermənilərdən yalnız 366 ailə (1715 nəfər) İrəvan şəhərinin özündə, 265 ailə (1110 nəfər) Naxçıvan şəhərinin özündə və 36 ailə (182 nəfər) isə Ordubad ərazisində məskunlaşdırıldı. Xaricdən köçürülən ermənilər İrəvan əyalətinin 119 kəndində, Naxçıvan əyalətinin 61 kəndində, Ordubad dairəsinin 11 kəndində yerləşdirildi. Beləliklə, İrəvan əyalətində 4559 (23568 nəfər), Naxçıvan ətrafında 2137 (10652 nəfər), Ordubad dairəsində 250 (1340 nəfər) erməni ailəsi yerləşdirildi. Nəticədə, qondarma "Erməni Vilayətinə" 35560 nəfərdən ibarət erməni ailəsi köçürüldü. Rusiya çarizmin xəzinəsindən 14000 manat qızıl, 400 manat gümüş pul xərcləmişdi. Məsələn, rus tədqiqatçısı N.Smirnov İrandan 90 min ermənin köçürülərək Azərbaycan əyalətində məskunlaşdığını yazır. 1829-cu ilin avqustunda rus qoşunları Balkan ətrafından İstanbula hücuma keçdikdə II Sultan Mahmud Rusiya dövlətinə barışıq təklif etdi. Hər iki dövlət arasında 1829-cu il sentyabrın 2-də Ədrinə sülhü bağlanıldı. Hər iki dövlətin sərhədinə görə Axılkələk qalası və Axıska şəhəri Rusiyaya birləşdirildi. Ədrinə sülhünün 13-cü maddəsinə əsasən, Türkiyənin işğal edilmiş ərazilərindəki ermənilər 18 ay müddətində daşınan əmlakları ilə bərabər Rusiya təbəəliyinə keçmək hüququ verilmişdir. Bir qədər sonra M.Vladikin ermənilərin bu əraziyə köçürülməsi haqqında yazırdı: "İrəvan quberniyasında yaşayan ermənilərin 1828-1829-cu illər müharibəsindən sonra Türkiyədən bu ərazilərə köçürülmüşlər". Hesabla Komissiyanın sayına görə, Osmanlı dövləti torpaqlarından 84 mindən çox erməni və yunan köçürüldüyü məlum olur. Lakin 1831-ci il aprelin 24-də qraf Paskeviçin adına verilmiş Əlahəzrətin buyuruğunda Türkiyə vilayətindən köçürülmüş xristianlar, yəni erməni və yunanlardan ibarət 14 mindən çox ailə (90 min nəfərə qədər) üçün 380 min gümüş pul rus dövlətindən ayrıldığı bildirildi.

### Smirnov İrandan 90 min ermənin köçürülərək Azərbaycan əyalətində məskunlaşdığını yazır

İ.Şopenin apardığı siyahıyaalmanın nəticələrinə görə, 1828-1829-cu illər Rus-Türk müharibəsindən sonra "Erməni vilayəti"nə Türkiyədən 21666 nəfər (3682 ailə) erməni, 324 nəfər (67 ailə) yezidi kürd köçürülmüşdür. İ.Şopenin 20-ci ildən ibarət əlyazmasında siyahıyaalmanın nəticələri 1852-ci ildə çap edilən "Erməni Vilayətinin Rusiya imperiyasına birləşdirilməsi dövrünün tarixi abidəsi"ndə müharibədən sonra "Erməni Vilayəti"ndə mövcud olmuş 752 kənddən 521-i İrəvan əyalətinə, 179-u Naxçıvan əyalətinə, 52-si isə Ordubad dairəsinə aid idi. Siyahıyaalmanın nəticələrinə görə, köçürülməyədək vilayətdə 81749 nəfər müsəlmanın isə 25151 nəfər erməni qeydə alınmışdı.

1832-ci il siyahıyaalınmasına görə, İrəvan əyalətindəki kəndlərdən 463-də müsəlmanlar (Azərbaycan türkləri), 98-də ermənilər, 63 kənddə isə azərbaycanlılar və ermənilər qarışıq yaşayırdılar. Beləliklə, erməni köçkünlər boşaldılmış 126 azərbaycanlı kəndində, azərbaycanlıların yaşadığı 70 kənddə, 22 qarışıq və 47 erməni kəndində məskunlaşmışdı. N.Şavrov yazırdı ki, rəsmi köçürülən 124 min nəfər erməni ilə yanaşı, qeyri-rəsmi şəkildə köçənlər də çox olmuşdur və ümumiyyətlə, köçürülənlərin sayı 200 min nəfərdən xeyli artıqdır. N.Şavrov qeyd edir ki, XIX əsrin əvvəllərində Cənubi Qafqazda yaşayan 1.300.000 ermənının bir milyondan çoxu yerli əhali deyil, onları bura biz köçürüb gətirmişik. XIX əsrin 20-30-cu illərindən başlayaraq Cənubi Qafqazın etnik xəritəsində yeni toplum erməni toplumu peyda oldu. 1988-ci ildə azərbaycanlıların keçmiş İrəvan xanlığı ərazisindən-indiki Ermənistan adlanan bölgədən deportasiyası başa çatdı. Azərbaycan toponimləri tamamilə "erməniləşdirilir". Belə demək olar ki, ermənilər özlərinə saxta "tarix" yaradırlar. Tarixi həqiqət bunu deməyi lazım bilir ki, ermənilər Cənubi Qafqaza gəlmə-köçürülüb gətirilmə etnosudur. Onların əcdadları hesab olunan tayfalar təqribən e.ə. I minilliyin ortalarında Fərat çayının yuxarılarında peyda olmuşlar. Onlar bu əraziyə Balkan yarımadasından köçüb gəlmişlər. Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra 1935-ci ilədək orada 190-dan çox azərbaycanlı yaşayış məntəqəsinin adı dəyişdirilmişdir. 1988-ci ilin avqust ayınadək indiki Ermənistan adlanan ərazisində 521 türkmənşəli yaşayış məskəninin adı dəyişdirilmişdir. Ermənistan AS-nin 1991-ci il 9 aprel fərmanı ilə azərbaycanlılara məxsus 90 məntəqənin adı dəyişdirilib. Ümumiyyətlə, son dövrədək 667 toponim dəyişdirilmiş 1918-ci il mayın 29-da Azərbaycan Xalq Cümhuriyyəti xalqın iradəsini nəzərə tutmadan, güclü dövlətlərin təzyiqi ilə öz ərazisində paytaxtı qədim Azərbaycan şəhəri İrəvan olmaqla erməni dövləti yaradılmasına razılıq verdi. Ermənilər və onların Moskvadakı himayəçiləri Azərbaycan dövlətinə qarşı gələcəkdə yeni ərazi iddiası sürmək üçün "zəmin" hazırladılar.

Bir sözlə, mövcud fakla və bizim apardığımız araşdırmalar bir daha onu təsdiq edir ki, ermənilər Cənubi Qafqaza gəlmə-köçürülüb gətirilmə toplumdur. Bunu dəfələrlə elmi məqalələrində və beynəlxalq tədbirlərdə erməni ziyalıları, siyasətçiləri də etiraf ediblər. Təkcə bir faktı qeyd etmək lazımdır ki, 1975-ci ildə ermənilər Azərbaycan ərazilərinə köçürülmələrinin 150 illiyini qeyd etmişdilər. Bu baxımdan, erməni toplumu köçürülmədir və köçürülmə etnos olaraq da bir zaman gəldikləri yerlərə qayıtmaları tarixi ədalətin bərpası demək olar.

**İ.ƏLİYEV**

# Artmaqda olan boşanmaların köklü səbəbləri nədir?

**Hazırda dünyada ekstremizm, qarşıdurmalar ailə institutuna mənfi təsir göstərir, onu zəiflədir. Amma bununla belə, Azərbaycanda ailə institutu qorunub saxlanılır. Bu gün ailə institutuna təsir edən hallar var. Bəzi hallarda ailədə ünsiyyət problemləri, sosial-psixloji mühitin gərginliyi, erkən və qeyri-rəsmi nikah, məişət zorakılığı, uşaqların təhsildən yayınması ailənin zəifləməsinə, dağılmasına gətirib çıxarır.**

Amma bəzən də biz valideyn və uşaqların məsuliyyət hissinin zəif olması hallarına rast gəlirik. Çünki Azərbaycanda boşanma proseduru Avropa ailələrindən fərqli olaraq normal getmir. Avropada boşanmağa hazırlaşan əksər ailələrdə hər iki tərəf anlaşaraq normal ayrılır və ayrılandan sonra dünyaya gətirdikləri övladlarına analıq və atalıq borcunu yerinə yetirməyə davam edirlər. Çox vaxt öz övladlarını bir dost kimi birgə böyüdürlər. Amma bizdə boşanma zamanı iki nəsil çox vaxt düşmənə çevrilir. Qadın məkrindən övladını ərinə göstərmir, yaxud ər ondan güclü çıxıb uşağı alır və uşağı anasına göstərmir. Əslində bu, bizim ailə dəyərlərimizdən uzaq olan bir haldır. Lakin buna Avropa dəyərləri də demək olmaz. Cəmiyyət dəyişdikcə insanın psixologiyasına, həyat tərzinə sirayət edən müəyyən amillər yaranır ki, onların təsiri altında bu gün Azərbaycan cəmiyyətində mənfi hallar baş verir.

Ailə psixoloqu İlahə Dəmirbəy S?A-ya açıqlamasında kiçik bir model adlandırdığımız ailə dəyərlərindən danışıb.

### Ailə institutu ümumiyyətlə bizim üçün nədir?

Bir çoxları üçün nəsil artımı düşüncəsidir. Nəslimi artırım və yaxud ailəm mənim üçün narahat olmasın kimi fikirləri ilə bu addımı atırlar. Bir çox valideynlər düşünür ki, övladım mütləq ailə qurmalıdır, uşaqları, əri olmalıdır, amma bu sadəcə cəmiyyətin insanlara öyrətim olmaqdır. Bu düşüncə ilə ailə quran insanların təbiidir ki, bir-biri ilə uzlaşma, anlaşma, çətin və yaxşı gündə anlamaq gözləntiləri fərqlidir. Maddi durumunu yaxşılaşdırmaq üçün, yaşayış yerini dəyişdirmək, ana-ata arasında yaranan problemlərdən qaçmaq üçün ailə quran gənclər də çoxdur. Bunu daha çox qızlara şamil etmək olar ki, ailə qurum ailədən qaçım deyə qərarlarını səhv verirlər. Evlənəndə də elə bir problemlərlə üzləşir ki, düşünür və keçmiş ailəm bura nisbətən daha yaxşı idi qənaətinə gəlirlər.

### Belə ailələrin uşaqlara göstərdiyi ailə münasibətləri, ailə modeli düzgündürmü?

Təbii ki düzgün deyil. Amma biz uşaqları tamamilə də bu problemlərdən yad qoya bilmərik. Uşağın gözünün qarşısında söyüş, dava-dalaş olamamalıdır. Uşaq ən azından bilməlidir ki, ailədə hər hansı problem olur və o problem çözülür. Bəzən heçnə deməyəndə ana və ata boşanmaq qərarına gələndə uşaqlar daha böyük travma və çaşqınlıq yaşayırlar ki, hər şey çox gözəl idi, amma anam atam birdən-birə boşanma qərarını verdi. Bu onlara daha çox təsir göstərir, nəinki ana ata bəzi problemlər olandan sonra uşaqlara bizim aramızda belə bir problem oldu, narahatçılıq oldu amma narahat olmayın məsələni həll etdik kimi fikirləri ilə anlatmaq lazımdır. Bəzən ailələrdə olur qadın və ya kişi uşağıma görə dözürəm, heç nə demirəm, övladlarım olmasa çıxıb gedərəm kimi düşüncə altında ömür sürür. Bu da kökündən yanlış məsələdir. Belə hallarda hər iki tərəflə danışıb məsələni həll etmək lazımdır. Çünki belə bir ailədə, mühitdə böyüyən uşaq sağlam psixologiyaya sahib olmayacaq. Həmçinin uşaqların bir-biri ilə ünsiyyəti, bir-birinə olan münasibəti onların gələcək həyatında bir ana obrazı olaraq, bir ata obrazı olaraq öz valideynləri kimi bir avtoportireti yaradır ki, artıq özü də istəməsə belə, zamanla beynində yaratdığı həmin avtoportiret özünü göstərəcəkdir.












### Belə ailələrdə böyüyən uşaqların cəmiyyətdə yer tutmasına nə kimi təsirləri ola bilər?

Cəmiyyətdə yer tutmasını sırf ailə ilə əlaqələndirmək olmaz. Təbii öncədən hər şey ailədən başlayır. Əlbəttə ki, həmin ailə dediyimiz mikro mühitdə nə tərbiyə almışıqsa, nə travmalardan keçmişiksə biz sabah makro mühitə çıxdıqda, ora inteqrasiya zamanı tətbiq etməyə başlayırıq. Bəzən bu birmənalı qarşılanmır. Təbii burada problem də ola bilər.

### Bəs bu halların qarşısını necə ala bilərik?

Qarşısını almaq üçün çox qlobal bir məsələlər ortaya çıxmalıdır. Məsələn bir gənc ailə qurarkən o ailə qurmağa hazırdımı sualını həmin insana verməliyik. İstər qadın, istər kişi. Həmçinin özləri bir-biri ilə tanış olduqdan sonra bir il ərzində ailə psixoloqu həmin fərdlərlə işləməlidir. Onların həqiqətən ailə qurma məsuliyyəti varmı-yoxmu bir birinə qarşı fikirləri düşüncələri nədir kimi sualları diqqətlə düşünərək cavablandırmalıdır.

Sosioloq, jurnalist Lalə Mehralı isə qeyd edir. Təəssüf ki, ölkəmizdə boşananlar bir-birinə qarşı o qədər aqressiv olurlar ki, aralarında sonradan bərpa olunmayacaq dərəcədə soyuqluq yaranır. Daha sonra övladlarına görə bir araya gəlmək lazım olanda görüşməyə heç biri cəsarət eləmir. Cütlüklər boşananda elə boşanmalıdır ki, övladlarının problemləri zamanı ortaq məxrəcə gələ bilsinlər. Ər arvaddan və yaxud arvad ərindən boşananda onlardan heç biri övladlarından boşanmamalıdır. Çox təssüflər olsun ki, bizim ölkəmizdə boşanan ailələr bunu dərk eləmir. Parçalanmış ailələrdə olan uşaqların psixoloji vəziyyəti ürək açan olmur. Çünki hər iki tərəf daima bir-birinə qarşı mənfi fikirlər söyləyir, hər ikisi övladının qarşısında digərini hörmətdən salmağa çalışır və bu da təbii ki, təsirsiz ötüşmür. Uşağın cəmiyyətə adaptasiyasında öz izini buraxır. Yəni həmin övladlar da problemlemli münasibətlər qurur və ya cəmiyyətə tam şəkildə adaptasiya oluna bilmirlər. Həmçinin də problemli münasibətlərə, zərərli vərdişlərə meyilli olurlar. Belə münaqişələri mühitdən çıxıb o səddi yıxa bilən uşaqlar da olur ki, onlar cəmiyyətdə, təhsildə yaxşı yer tuta bilirlər. Təbii ki, iradədən də çox şey asılıdır.

Valideynlər münasibətlərinin yaxşı mənada bərpa edilməsini qeyri-mümkün sayırsa tamamilə kəsmək qərarına gəlirlər. Bəzən də sığınacağa qoyulan uşaqlara valideynləri görüşməyə qoymurlar. Təəssüflər olsun ki, bəzi valideyn-uşaq münasibətləri toksik olur və bununda həmin uşaqların gələcək həyatında mənfi təsirləri özünü daha çox biruzə verir. Həmin uşaqlar vaxtında həkim, psixoloq qəbuluna getməli və gələcəyi üçün nə kimi təhlükələr varsa hamısını aradan qaldırmalıdır. Hesab edirəm ki, bu yöndə gedən işlər, ayrı-ayrı sığınacaqlar tərəfindən qənaətbəxşdir. Amma Ailə, Qadın və Uşaq Məsələləri üzrə Dövlət Komitəsinin işi zəif və yaxud bir qədər kölgədə qalır. Ola bilər iş görürlər cəmiyyəti və ya mətbuatı xəbər etmirlər. Bu kimi işlər görəndə hesabatları geniş şəkildə məlumatlandırmalıdır.

Vəkil Türkel Süleymanlı açıqlamasında son illərdə ölkəmizdə ailə institutunun öz əhəmiyyətini itirməyə başladığını deyib. O qeyd edib ki, ailəni təşkil edən tərəflər maddi məsələlərə daha çox üstünlük verirlər.

Vəkil boşanma sayının artmasının səbəblərindən biri kimi cəmiyyətdəki ümumi gərginliyi, insanlarda dözümsüzlüyün yaranmasını göstərib. Digər səbəb isə maddiyyat çatışmazlığıdır. Ümumiyyətlə, 2010-cu ildən etibarən boşanmaların sayının ilbəil artması nəzərə çarpır. Belə ki, 2010-cu ildə 9 min 61 boşanma qeydə alınmışdısa, sonrakı illərdə biz bu rəqəmlərin daha da artmasının şahidi oluruq.

Hər il Azərbaycanda nikahların 12-13 faizi boşanma ilə nəticələnir. Avropa dövlətlərində bu rəqəm 35-45 faizdir. ABŞ-ın bəzi ştatlarında boşanmalar 70 faiz, bəzilərində isə 45-50 faizdir. Ölkəmizdə hər il təxminən 170 min əhali doğulur, 80 min nikah bağlanır və təxminən 12 min boşanma faktı baş verir. Lakin Azərbaycanda boşanmaların səbəblərinə diqqət yetirsək görərik ki, bu səbəblər gələcəkdə aktual probləmə çevrilə bilər.

Yaxşı olar ki, boşanma zamanı uşaqlar psixoloji dəstək alsın. 12 yaşdan sonrakı korreksiya çox əziyyətlidir, amma mümkünsüz deyil. Natamam ailələrdə uşaqlar gələcəkdə özləri də ailə qurmaqdan qaçırlar. Ailə Məcəlləsinə görə, əgər tərəflər arasında əmlak mübahisəsi yoxdursa, uşaqları yoxdursa, yerli icra orqanına boşanmaq barədə ərizə verdikdən bir ay ərzində boşanma gerçəkləşir. Amma tərəflər arasında əmlak mübahisəsi və uşaq varsa, razılığa gəldikləri halda bir aya boşanırlar, razılıq əldə edilmirsə, məhkəmə onlara barışıq üçün 3 ay möhlət verir. Azərbaycanda maariflənmə işi gücləndirilməlidir, risk altında olan, yeni zorakılıq faktı baş verən ailələr diqqət mərkəzində olmalıdır. Qanunvericilikdə də təkmilləşdirmə işi aparılmalıdır.

***Havar Şəfiyeva***

# Bizi ərzaq böhranından xilas edəcək FAKTOR: BƏRƏKƏTLİ TORPAĞIMIZ!

**Dövlət bütün gücünü aqrar sektora verməlidir, çünki bu sahə yüngül və aqrar sənayenin böyük bir istehsal zəncirini yaradar, ölkə iqtisadiyyatının sürətli inkişafına böyük təkan verər**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti çərçivəsində hazırlanıb*

Aqrar sektor Azərbaycanda ən çox potensialı, ən yüksək perspektivi olan sahədir. Hətta bütün potensialından səmərəli istifadə ediləcəyi təqdirdə, neft sektoru belə onun yanında kölgədə qalar. Hazırkı vəziyyətdə bizim aqrar sektorumuz öz potensialının çox az hissəsindən istifadə edir. Bunun obyektiv və subyektiv səbəbləri var.

Azərbaycanda torpaq fondunun yalnız yarısı əkinə yararlıdır. Bu hissədən də lazımi səviyyədə istifadə edə bilmirik. Burada su ehtiyatlarının və suvarma sistemlərinin hər yerdə uyğun vəziyyətdə olmaması, rayonlaşdırmanın tətbiq edilməməsi, əkinlərə aqrotexniki qulluğun zəif olması, savadlı və təcrübəli aqronomların azlığı, toxum və gübrə ilə bağlı problemlər və s. səbəbləri göstərmək olar.

Ən əsası isə planlaşdırmanın mümkün olmamasıdır. Bunun nəticəsində, hər il müəyyən məhsullar bol olur, digər qism məhsullar qıt olur. Məsələn, bir il bir məhsul həddən çox əkilir, bazarda su qiymətinə olur, istehsalçılar zərərə düşür, o biri il heç kim əkmir və bazarda od qiymətinə olur, istehlakçılar zərər çəkir. Bu kimi çoxsaylı faktlar onu göstərir ki, planlaşdırılmış təsərrüfat sisteminin analoqu yoxdur. Bu halda kənd təsərrüfatı əkinləri optimal tənzimlənər və bütün məhsullar tələb olunacaq həddə istehsal olunar.





Bundan əlavə, xarici bazarlar araşdırıla bilər və bizdə tələbatdan artıq istehsal olunmuş məhsulların ixrac edilməsinə köməklik göstərilə bilər. Ümumiyyətlə, fikrimcə, dövlət bütün gücünü aqrar sektora verməlidir, çünki bu sahə kənd təsərrüfatı ilə yanaşı, həm də yüngül sənaye və aqrar sənaye üzrə böyük bir istehsal zənciri yarada bilər. Ölkənin potensialından istifadə olunar, işsizlik aradan qalxar, paytaxta cəmlənmiş əhalinin müəyyən hissəsi regionlara qayıdar, ÜDM artar, büdcəyə ödənişlər çoxalar, idxaldan asılılıq azalar, ixrac imkanları genişlənər. Beləliklə, tarazlı və davamlı inkişaf prosesi gedər.

Düzdür, dövlət bu istiqamətdə müəyyən proqramlar həyata keçirir, böyük vəsaitlər ayırır, fermerlərə hərtərəfli dəstək verir. Lakin potensial daha çoxdur və bu sahədə daha böyük işlərin həyata keçirilməsi mümkündür. Son dövrlərdə böyük və nümunəvi aqroparkların yaradılması təqdirəlayiqdir. Lakin paralel olaraq kiçik fermerlərə də dəstək artırılmalıdır. Aqrar sahədə maneə törədən əngəllər aradan qaldırılmalıdır.

İlk dövrdə klaster yanaşma ilə ən perspektivli sahələr seçilməli və onlara daha böyük dəstək verilməlidir, keçmişdə şöhrət tapdığımız və yüksək gəlir əldə etdiyimiz ənənəvi sahələr tam bərpa olunmalı, lakin əsas güc ərzaqyönümlü istehsala qoyulmalıdır.

Qlobal böhranlardan və quraqlıqdan zərər görməmək üçün gübrələrin ölkədə istehsalı təmin olunmalı, su fondlarının ehtiyatı artırılmalıdır. Eyni zamanda, sudan səmərəli istifadə təşkil edilməli, su itkilərinin qarşısı alınmalıdır. Çünki Azərbaycan su ehtiyatlarına görə Qafqazda ən zəif vəziyyətdədir, ehtiyatımızın 70 faizi xarici mənbələrdən formalaşır.

Burada innovasiyaların tətbiqi əlbəttə lazımdır, lakin bir şərtlə ki, təbii metodlardan istifadə olunsun, bir qədər artıq məhsul naminə GMO texnologiyalarından və zərərli kimyəvi dərmanlardan istifadə edib torpaqlarımızı yararsız hala sala bilmərik. GMO toxumlarının əkilməsi bizi toxumda idxaldan asılı vəziyyətə salır ki, bu da ərzaq təhlükəsizliyi ilə yanaşı, həm də milli və dövlət təhlükəsizliyi məsələsidir.

Dünyada nümunəvi aqrar ölkələr var ki, düzgün idarəetmə və düzgün yanaşma nəticəsində bol məhsul əldə edir, böyük həcmdə ixrac da edirlər. Biz Belarus nümunəsini götürüb tətbiq edə bilərik. Dünyada ən effektiv aqrar sistemlərdən biridir. Tam keyfiyyətli, zərərsiz aqrar məhsulların ixracından yaxşı gəlir əldə edir. Dövlət aqrar sektora güzəştli kreditlər və subsidiyaları artırmalı, fermerlərlə növlər üzrə məhsul istehsalının tənzimlənməsi üçün koordinasiyalı işləməlidir. İstehsal olunan məhsulları dövlət almalı və özü bazara buraxmalıdır. Əlbəttə, könüllü şəkildə, yəni məhsulunu satmaqda çətinlik çəkənlərdən.

Bundan başqa, bazarlar alverçilərdən təmizlənməli, məhsul istehsal edən kəndlilər bazar və yarmarkalara maneəsiz giriş imkanı ilə təmin edilməlidir. Bu tədbirlər görülsə, qısa müddətdə ölkədə məhsul bolluğu və ucuzluğu yaratmaq olar. ÜDM isə azı 2 dəfə artırmaq olar. Çünki aqrar sektor təkcə kənd təsərrüfatı məhsulları demək deyil, həm də böyük və rəngarəng aqrar sənaye zənciri deməkdir. Bu sistemi inkişaf etdirə bilsək, regionlarda məşğulluq problemi tamamilə aradan qalxar, ölkə əksər məhsullarda idxaldan asılılığını ləğv edər və böyük ixrac ölkəsinə çevrilərək nəhəng maliyyə vəsaitləri əldə edər.




İşğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur bölgəsinin çox böyük aqrar potensialı var. Həmçinin bu, bolsulu bölgədir, belə ki, regionun su ehtiyatları ölkənin ümumi su ehtiyatlarının 30 faizini təşkil edir. Burada, əkinçilik, heyvandarlıq üçün yaxşı şərait var. Ərazi minalardan təmizləndikcə bu torpaqlardan istifadə artacaq və ölkənin ümumi aqrar istehsalına çox böyük töhfə olacaq. Hazırda dünyada taxıl böhranı müşahidə olunduğu bir vaxtda buradakı taxılçılığın böyük potensialı regionun əhəmiyyətini daha da artırır.

Dünyada qlobal ərzaq böhranın getdikcə kəskinləşdiyi ağır bir dövrdə bütün gücümüzü aqrar-sənaye sektoruna qoymağa çox ciddi ehtiyac var. Bunun üçün kompleks bir dövlət proqramı qəbul etməklə, strateji ehtiyatlarımızdan bir neçə milyardını bu sahəyə invest edərək qısa müddətdə böyük nəticələr əldə etmək olar.

Bu halda regionlarda kiçik və orta sahibkarlıq güclü inkişaf edər. Çoxsaylı kiçik və orta səviyyəli emal müəssisələri yaradıla bilər. Nəticədə biz məhsulumuzu xaricə xammal kimi yox, hazır məhsul kimi satıb daha böyük gəlirlər əldə edə bilərik. Regionlarda aqrar sənaye zəncirinin inkişafı, dolayı yolla digər sahələrə də təsir göstərər. İnnovativ iqtisadiyyata keçid üçün imkanlar artar.

Göründüyü kimi, Azərbaycanın coğrafi şəraiti, iqlim və torpaq imkanları özünü bütün zəruri gündəlik tələbat məhsulları ilə təmin etməyə və hətta böyük həcmdə ixrac etməyə də imkan verəcək səviyyədədir. Sadəcə, bu sahəyə diqqəti daha da artırmalıyıq.

***Elçin Bayramlı***



# "Çelsi"
## bu futbolçuya 75 milyon avro təklif etdi!

Londonun "Çelsi" klubu "Lester"in 21 yaşlı mərkəz müdafiəçisi Uesli Fofana ilə müqavilə imzalamağı planlaşdırır. SİA-nın "Championat"a istinadən məlumatına görə, "Çelsi" oyunçu üçün 75 milyon avro təklif etsə də razılaşma hələ ki, alınmayıb. 2022/2023 mövsümü ərəfəsində "Lester" komandası Fofananı əvəzolunmaz oyunçu hesab edir. Fofana özü isə Çempionlar Liqası uğrunda mübarizə aparmaq üçün "Çelsi"yə keçmək istəyir.

Qeyd edək ki, Fofana 2020-ci ilin oktyabrında "Sent-Etyen"dən "Lester Siti"yə keçib. O vaxtdan bəri müdafiəçi 50 oyunda 1 qol vurub və məhsuldar ötürmə edib. Tərəflər arasında müqavilənin müddəti 2027-ci ildə başa çatır.

*Şiraslan*



## 53 il əvvəl göldə itən üzük tapılıb

Kaliforniya gölündə çimərkən üzüyünü itirən alabamalı qadının zinət əşyası 53 ildən sonra göldə balıq tutan cütlük tərəfindən tapılıb. Belə ki, Dana Skott Laflin 1969-cu ildə orta məktəbi bitirdikdən sonra Berriess gölündə üzərkən üzüyü suya düşüb. Onun oğlu bir neçə gün əvvəl həmin göldə balıq tutarkən üzüyü tapan və sahibini müəyyənləşdirməyə çalışan cütlükdən mesaj alıb.

Qadın fotoşəkillərə baxaraq adının baş hərflərinin və oxuduğu məktəbin adının həkk edildiyi üzüyün ona məxsus olduğunu təsdiqləyib. Tapılmış üzük poçtla sahibinə göndərilib.

## Abşeronda 10 min manatlıq oğurluq



Abşeronda obyektdən 10 min manatlıq oğurluq edilib. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib.

Bildirilib ki, Abşeron Rayon Polis İdarəsinin əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində cari il iyulun 24-dən avqustun 1-dək olan müddətdə Mehdiabad qəsəbəsi ərazisindəki istifadə olunmayan obyektlərin birindən 10 min manat dəyərində qapı və pəncərələr oğurlamaqda şübhəli bilinən Abşeron rayon sakini N.Hacıyev saxlanılıb. Faktla bağlı araşdırma aparılır.

## Xəbərdarlıq:
## Hava bu tarixdən kəskin dəyişəcək

**Bakı və Abşeron yarımadasında avqustun 6-dan 9-u gündüzədək şimal-qərb küləyi 15-18 m/s, 6-7-də yarımadanın bəzi yerlərində arabir 20 m/s olacaq. Bu barədə Milli Hidrometeorologiya Xidmətindən xəbər verilib. Avqustun 6-8-də əsasən gecə və səhər saatlarında bəzi yerlərdə yağış yağacağı ehtimalı var.**

Azərbaycanın rayonlarında avqustun 5-i axşamdan 9-u gündüzədək bəzi yerlərdə şimşək çaxacağı, fasilələrlə yağış yağacağı gözlənilir. Qərb küləyi 6-8-də bəzi yerlərdə arabir 18-23 m/s olacaq. Çaylarda sululuğun artacağı ehtimalı var.



# İNGİLİS ALİMLƏRİ:
## Bibər xərçəngi yox edir!

**Qırmızı acı bibər xərçəng hüceyrələrini məhv edə bilən möcüzəvi bir bitkidir. Saglamolun.az publika.az-a istinadən xəbər verir ki, bu iddia İngiltərənin Nottinqam Universitetin araşdırması nəticəsində məlum olub.**



Xalapeno bibərində (qırmızı acı bibər, xüsusilə Meksika mətbəxində geniş istifadə olunur) olan "kapsaisin" maddəsi hüceyrələrin enerji istehsal edən bölməsi mitoxondriyə hücum edərək xərçəng hüceyrələrini öldürür.

Araşdırmaya görə, kapsaisindəki molekul ailəsi olan vaniloidlər xərçəng hüceyrələrində proteinin yaranmasına mane olurlar. Bununla hüceyrənin ölümünə səbəb olurlar. Vaniloidlər bu zaman sağlam hüceyrələrə zərər vermir.

Antioksidant tərkibli qırmızı acı bibərin xərçəngin qarşısını alan "likopen" maddəsi ilə də zəngindir. Bu bitkidən mədəsində problem olmayan hər insan mütləq istifadə etməlidir.

Hind və Meksika mətbəxində tez-tez istifadə edilən qırmızı acı bibərin pul bibərdən fərqləri var. Qırmızı bibər qurudularkən Günəşin şüaları altında digərindən daha çox saxlanılır. Pul bibər kimi acı, yandırıcı dadı yoxdur. Qurutma prosesindəki fərqlilik pul bibəri daha tünd rəngdə edir.

Acı bibərin tərkibində A və C vitamini ilə yanaşı, dəmir, kalium, maqnezium, fosfor, kalsium və sodium kimi önəmli minerallar mövcuddur.

Tərkibindəki "kapsaisin" maddəsi mədə və bağırsaqların hərəkətini sürətləndirir. Ödəm atır və yağ yandırmağa kömək edir. Keyidici təsiri var. Xolestrol və triqliseritin səviyyəsini aşağı salır.

## ELAN

Şamaxı rayonu Aqrar İslahat Komissiyası tərəfindən Nəbiyev Vadil Rəsul oğlunun adına verilmiş rayonun Göylər kəndində yerləşən A223324 torpaq sahəsinin planı və ölçüsü itdiyi üçün etibarsız sayılır.

## Başsağlığı

Yeni Azərbaycan Partiyasının Oğuz rayon təşkilatının kollektivi YAP Salyan rayon təşkilatının sədr müavini

**Fazil Məhərrəmovun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin!***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3220**